QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 067 (5539) 8 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Aprelin 11-də ZƏFƏR bizimlədir!



4

Xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevi dəstəkləyir



3

Əli Həsənov: "Kimlərinsə təhqir və söyüşlərinin mənimlə əlaqələndirilməsi cəhdini təxribat hesab edirəm"



3

Bilal Dündar: "Azərbaycanda seçkiqabağı mühit sabit və demokratikdir"






# "The Jerusalem Post": Prezident seçkiləri Azərbaycanın sabitliyi, inkişafı və çiçəklənməsi üçün mühüm mərhələ olacaq

Azərbaycanda prezident seçkiləri böyük seçki təcrübəsi əsasında keçiriləcək. Prezident seçkiləri çox mühüm siyasi hadisədir. Biz həmişə Azərbaycan xalqının seçkilərdə böyük fəallığının şahidi olmuşuq.

AZƏRTAC xəbər verir ki, bu sözləri beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc edilmiş "Prezident seçkiləri Azərbaycanın sabitliyi, inkişafı və çiçəklənməsi üçün mühüm mərhələ olacaq" sərlövhəli məqaləsində yazıb. Məqalə müəllifi qeyd edir ki, aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərində 8 namizəd iştirak edəcək.

Azərbaycan cəmiyyətinin bu dəfə də prezident seçkilərində fəal iştirak edəcəyinə əminliyini ifadə edən A.Qut yazır: "Bu gün Azərbaycan ictimaiyyəti başa düşür ki, aprelin 11-də prezident seçkiləri mükəmməl qanunvericilik və daha geniş seçki təcrübəsi əsasında keçiriləcək. Mən Mərkəzi Seçki Komissiyasının (MSK) uzunmüddətli seçki təcrübəsini də qeyd etmək istərdim. Xüsusi vurğulamaq istəyirəm ki, prezident seçkiləri ilə əlaqədar Azərbaycanın seçki məntəqələrinin 20 faizində, yəni 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Seçkilər günü hər bir internet istifadəçisi MSK-nın rəsmi saytının birbaşa efirində səsvermə prosesini izləyə bilər. Aprelin 11-də prezident seçkilərini müşahidə etmək üçün Azərbaycan MSK-nın qeydiyyatından 545 beynəlxalq müşahidəçi keçib".

Azərbaycanın Cənubi Qafqaz regionu-

THE JERUSALEM POST

nun ən güclü ölkəsi olduğunu vurğulayan məqalə müəllifi yazır: "Bu günün faktiki reallığı budur ki, Avrasiyanın heç bir ölkəsinin İsraillə Azərbaycan qədər sıx əlaqələri yoxdur. İki dövlət arasında diplomatik münasibətlərin 25 illik tarixi ərzində yəhudi dövləti ilə müsəlmanların çoxluq təşkil etdiyi dövlət arasındakı strateji münasibətlərin zəruriliyi və həyat qabiliyyəti sübuta yetirilib. Dost dövlətlərimiz həqiqətən etibarlı strateji tərəfdaşlar kimi qarşılıqlı fəaliyyət göstərirlər. Faktiki olaraq azərbaycanlılar və yəhudilər nəinki dinc yanaşı yaşamağı, həm də əsl dost olmağı, öz münasibətlərini inkişaf etdirməyi və möhkəmləndirməyi bacarırlar".

İsraili ekspert qeyd edir ki, bir çox xalqlardan fərqli olaraq, azərbaycanlılar yəhudilərə heç vaxt əcnəbi kimi baxmayıblar. O yazır: "Əslən Azərbaycandan olan israillilər Azərbaycan ilə İsrail arasında iqtisadi, hətta geosiyasi əməkdaşlığa kömək etmək üçün çox işlər görürlər. Yəhudi xalqı Azərbaycanda heç vaxt ayrı-seçkilik, sıxışdırma, həqarət, talanlar, yaxud hər hansı digər antisemit hərəkətlərlə üzləşməyib. Nə vaxtsa Azərbaycanda olmuş hər bir yəhudi təsdiq edə bilər ki, bu gözəl ölkədə yaşayan yəhudilər tamamilə sərbəst olaraq sinaqoqa gedir, başlarına kipa qoyaraq milli geyimdə şəhərdə gəzişirlər.

Mən bir İsrail vətəndaşı kimi, fəxrlə deyə bilərəm ki, Azərbaycan rəhbərliyi müasir Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsi olan yəhudi icmasına böyük hörmətlə və diqqətlə yanaşır. İki sinaqoq və Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi inşa edilib. Azərbaycanda yəhudi muzeyi yaradılması planlaşdırılır. Bu, Cənubi Qafqazda ilk yəhudi muzeyi olacaq. Dünyada Azərbaycan neftinin əsas alıcılarından birinin İsrail olduğunu vurğulayan A.Qut daha sonra yazır: "Öz növbəsində Azərbaycanın kənd təsərrüfatı, hərbi sənaye, telekommunikasiyalar sahələrində İsrailin yüksək texnologiyalarına ehtiyacı var və bu siyahını davam etdirmək olar. İsraildə istehlak olunan neftin xeyli hissəsi (təqribən 65 faizi) Azərbaycandan, yaxud Azərbaycan keçməklə, Bakı-Tbilisi-Ceyhan (BTC) magistral neft kəməri vasitəsilə idxal olunur.

Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır.

A.Qut yazır ki, dünyada neftin qiymətlərinin aşağı olduğu bir vaxtda Azərbaycan iqtisadiyyatı kreativ olmağa çalışır: iqtisadiyyatın şaxələndirilməsinə, ölkənin neft və qaz gəlirlərindən asılılığının azaldılmasına və gələcəkdə ölkənin qeyri-neft sektorunun və ixrac imkanlarının möhkəmləndirilməsinə yönəldilən irimiqyaslı layihələr həyata keçirilir.

İsrailli ekspert yazır: "Təəssüf ki, elə təşkilatlar və ölkələr var ki, onlar Azərbaycanın inkişaf yolunu seçməsi, mütərəqqi və sülhməramlı missiyalara qoşulması faktına məhəl qoymurlar. Hesab edirəm ki, Ermənistan istər Cənubi Qafqazda, istərsə də bütün dünyada sülhün və sabitliyin inkişafında maraqlı olmayan azsaylı ölkələrdən biridir. Cənubi Qafqaz regionunda təcrid vəziyyətinə düşən Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyi üçün Xəzər dənizinin neft və qaz resursları ilə bağlı başlıca geosiyasi və geoiqtisadi layihələrdən praktiki olaraq kənarda qalıb və indi də iri regional nəqliyyat layihələrinə qoşulmaq imkanlarını itirib. Bundan əlavə, Ermənistandakı bu rejim beynəlxalq normalara etinasız yanaşaraq, Azərbaycanın tarixi torpaqlarının işğalını davam etdirir. Yaxşı olardı ki, dünyanın hüquqi təsisatları Azərbaycanın haqq mübarizəsini dəstəkləyən BMT qətnamələrinə məhəl qoymayan bu ölkə barəsində tədbir görsünlər. Dünyanın mütərəqqi dairələri bu fakta diqqət yetirməli və müvafiq tədbirlər görməlidirlər".

Azərbaycanda prezident seçkilərinə qayıdan Arye Qut qeyd edir ki, bu seçkilər dövlətin tarixində yeni dövrün başlanğıcı olacaq. O, fikrini belə yekunlaşdırır: "Əminəm ki, bu seçkilər yeni islahatların və yeni nailiyyətlərin başlanğıcı və təkanverici qüvvəsi olacaq. Hazırda Azərbaycan özünün ən yeni tarixinin mühüm inkişaf mərhələsindən keçir. Düşünürəm ki, aprelin 11-də prezident seçkiləri beynəlxalq norma və qaydaların tələblərinə müvafiq surətdə və yüksək səviyyədə keçiriləcək. Siyasi partiyalara və KİV-lərə tam sərbəstlik yaradılıb. İnternet məkanı tamamilə azaddır. Hesab edirəm ki, seçkilərdə Azərbaycan xalqının iradəsi nümayiş etdiriləcək və o, gələcəyinin və bundan sonrakı inkişafının xeyrinə düzgün seçim edəcək".

# Əli Həsənov: “Kimlərinsə təhqir və söyüşlərinin mənimlə əlaqələndirilməsi cəhdini təxribat hesab edirəm”



Azərbaycan prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sosial şəbəkələrdə milli mənəvi-əxlaqi dəyərlərə zidd kampaniyanın həyata keçirilməsində Azərbaycan hakimiyyətinin və özünün adının hallandırılmasına münasibət bildirib. SİA-nın məlumatına görə, Ə.Həsənov deyib ki, son günlər virtual şəbəkədə milli mənəvi-əxlaqi dəyərlərə zidd, söyüş və təhqir dolu şərhlər, çıxışların təşkili ilə bağlı Azərbaycan hakimiyyətinin və şəxsən onun adının hallandırılması cəhdləri təəssüf doğurur.

“İstər şəxsi həyatımda, istərsə də siyasi fəaliyyətimdə qeyri-etik davranışı yolverilməz hesab etmişəm və milli mənəvi-əxlaqi dəyərlərə zidd leksikondan daim uzaq olmuşam. Sosial mediada və KİV-dəki açıqlama və müraciətlərimdə də siyasi polemika zamanı hamını bu tipli davranışdan çəkinməyə çağırmışam, belə cəhdləri isə tərbiyəsizlik və acizlik əlaməti kimi qiymətləndirmişəm. Mənim bu tövsiyə və müraciətimə məhəl qoymayan və küçə leksikonundan istifadəni davam edən ayrı-ayrı sosial şəbəkə istifadəçilərini Azərbaycan hakimiyyəti və şəxsən mənimlə əlaqələndirmək böhtan və iftiradan başqa bir şey deyil. Birmənalı şəkildə bəyan edirəm ki, ayrı-ayrı şəxslərin öz tərbiyəsinə uyğun açıqlama və çıxışlarının guya mərkəzləşmiş şəkildə mənim tərəfimdən təşkil olunması, “rəhbərlik etdiyim” hansısa “troll” və digər uydurma “qruplar”a ayrı-ayrı şəxsləri təhqir etmək tapşırığı verilməsi haqda iftiralar məqsədyönlü şəkildə Azərbaycan hakimiyyətini və şəxsən məni ləkələmək məqsədi daşıyır. Prezidentin köməkçisi və Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri kimi nə mən, nə də tabeçiliyimdə olan strukturlarda çalışan insanlar bu cür əməl sahibi olmamışıq və deyilik. Kimlərinsə öz təşəbbüsü və səviyyəsinə uyğun şəkildə yaydığı təhqir və söyüşlərin mənimlə əlaqələndirilməsi cəhdini birmənalı şəkildə təxribat hesab edirəm!”, - deyə o vurğulayıb.

Ə.Həsənov daha sonra bildirib: “Yox əgər bu iddianı irəli sürənlər məni söyüş kampaniyasına qarşı ictimai müqavimətin təşkil olunmasına görə hədəfə götürürlərsə, onda onu da bilməlidirlər ki, hakimiyyət nümayəndəsi kimi bu, bilavasitə mənim vəzifə səlahiyyətlərimə aid məsələdir. “Söyüş kampaniyasını” təşkil edənlər ciddi ictimai qınaqla qarşılaşdıqlarına və bütün cəhdlərinin iflasa uğradığını anladıqlarına görə, indi məsuliyyəti öz üzərlərindən atmağa və kənarda günahkar axtarmağa çalışırlar”.

# Müdafiə naziri: Prezident seçkiləri ərəfəsində düşmənin törədə biləcəyi təxribatların qarşısı qətiyyətlə alınmalıdır



Aprelin 7-də müdafiə naziri, general-polkovnik Zakir Həsənovun sədrliyi və nazirliyin rəhbər heyətinin iştirakı ilə növbəti xidməti müşavirə keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin son çıxışlarında səsləndirdiyi fikirləri və Azərbaycan Ordusunun qarşısına qoyduğu tapşırıqları şəxsi heyətə çatdırıb.

Ali Baş Komandanın Orduya yüksək qiymət verdiyini, daim diqqət və qayğı ilə yanaşdığını xüsusi vurğulayan müdafiə naziri cəbhə bölgəsində mövcud vəziyyəti təhlil edib və qarşıda duran vəzifələrdən danışıb. Səfərbərlik və hərbi xidmətə çağırışın Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə uğurla davam etdirildiyini bildirən nazir gənc əsgərlərin qəbulu və yerləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

Müdafiə naziri qarşıdan gələn prezident seçkilərinin hərbi hissələrdə də yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı konkret tapşırıqlarını çatdırıb. Həmçinin bu ərəfədə düşmən tərəfindən cəbhə xəttində ehtimal olunan istənilən təxribatlara daim hazır olmaq, belə hallar baş verərsə dərhal qarşısının alınması məqsədilə qətiyyətli tədbirlər görmək tapşırılıb.

# Bilal Dündar: “Azərbaycanda seçkiqabağı mühit sabit və demokratikdir”

Azərbaycanda seçkiqabağı mühit sabit və demokratikdir. Bütün proseslər qanun çərçivəsində həyata keçirilir. SİA xəbər verir ki, bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar bildirib.

Bilal Dündar Azərbaycanda gedən inkişaf proseslərinin beynəlxalq miqyasda da yüksək qiymətləndirildiyini söyləyib. O vurğulayıb ki, prezident seçkilərinə hazırlıq işlərinin getdiyi bir vaxtda Bakının 800-dən çox xarici nümayəndənin iştirak etdiyi Qoşulmama Hərəkatının nazirlər konfransına ev sahibliyi etməsi olduqca təqdirəlayiqdir və bu, qonaqlar tərəfindən də yüksək dəyərləndirildi.

Federasiyanın sədri bütün bu uğurların fonunda bəzi Avropa ölkələrində Azərbaycan əleyhinə çirkin kampaniyaların aparılmasının yolverilməz olduğunu söyləyib. O



bildirib ki, anti-Azərbaycan qüvvələrin əlində alətə çevrilən bir neçə şəxsin ölkənin imicinə xələl gətirmək kimi niyyətləri iflasa məhkumdur. Azərbaycan xalqı, xaricdəki Azərbaycan icmaları, cəmiyyət və birlikləri bu antimilli şəxslərin məkrli niyyətlərinə, onların sosial şəbəkələrdə söyüş və təhqirləri “mübarizə” vasitəsinə çevirmələrinə qarşıdırlar. Bu məsələ təkcə Azərbaycanda deyil, Türkiyədə yaşayan azərbaycanlıların da kəskin narazılığına səbəb olub.

# İstanbul şəhərində yaşayan Azərbaycan vətəndaşları İlham Əliyevə dəstək aksiyası keçiriblər



Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Avropa ölkələrində və MDB məkanında yaşayan soydaşlarımız, bütün dünya azərbaycanlıları prezidentliyə namizəd cənab İlham Əliyevə bu və ya digər formada dəstək nümayiş etdirirlər. Xaricdə yaşayan soydaşlarımız, müxtəlif diaspor təşkilatları bu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin namizədliyini müdafiə etdiklərini bildirir və dəstək aksiyası keçirirlər.

Bu silsilədən növbəti belə bir aksiya qardaş Türkiyənin İstanbul şəhərində yaşayan Azərbaycan vətəndaşları tərəfindən keçirilib. Görüşdə “Hilal” İctimai Birliyinin sədri Arzuman Abdulkərimov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan ətraflı bəhs edib. O, həmvətənlərimizi aprelin 11-də cənab İlham Əliyevə səs verməyə səsləyib.

Tədbirdə, həmçinin, Avrasiya Gənclərin Beynəlxalq Əməkdaşlıq Təşkilatının sədri, Türkiyə Doqquz Eylül Universitetinin doktorantı Tural Əfəndiye, İstanbul Böyükşəhər Bələdiyyəsi idman klubunun üzvü, güləş üzrə dünya və Avropa mükafatçısı Məhəmmədhüseyn Həsənov və digərləri çıxış edərək, Azərbaycanın daha da inkişafı və qüdrətlənməsi naminə vətəndaşlarımızı cənab İlham Əliyevə səs verməyə çağırıblar.



## MDB PAA DİMBİ-nin müşahidə missiyası aprelin 8-dən Bakıda olacaq

MDB Parlamentlərarası Assambleyasının demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (MDB PAA DİMBİ) beynəlxalq müşahidə missiyası Azərbaycan Respublikası Prezidenti seçkilərini müşahidə etmək üçün aprelin 8-dən başlayaraq Bakı şəhərində olacaq.

MDB PAA DİMBİ Bakı filialının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşahidə missiyasının tərkibinə Rusiya, Tacikistan, Moldova, Belarus, Qazaxıstan və Qırğızıstandan olan deputatlar daxildir. Bundan əlavə, beynəlxalq müşahidəçilər missiyasının tərkibində MDB PAA-nın beynəlxalq monitorinq institutunun əməkdaşları və ekspertləri də var. Missiya üzvləri aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərini müşahidə etmək üçün Bakı şəhərində və respublikanın bölgələrində olacaqlar. Həmçinin beynəlxalq müşahidəçilərin Milli Məclisdə, Mərkəzi Seçki Komissiyasında və prezidentliyə namizədlərlə görüşləri nəzərdə tutulur. Seçkilər başa çatdıqdan sonra beynəlxalq müşahidəçilər mətbuat konfransı keçirəcəklər.

# Xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevi dəstəkləyir



**Prezidentliyə namizəd cənab İlham Əliyevin səlahiyyətli nümayəndəsi Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi**

**- Siyavuş müəllim, aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat mərhələsinin bitməsinə bir neçə gün qalır. Seçki marafonunun bu mərhələsini necə xarakterizə edirsiniz?**

- Azərbaycan çox mühüm siyasi kampaniya - prezident seçkiləri ərəfəsindədir. Ölkəmizdə aprelin 11-də prezident seçkiləri keçiriləcək. Namizədlər martın 19-da start verilən təbliğat-təşviqat kampaniyası çərçivəsində öz seçki platformalarını seçicilərə çatdırır, təbliğat görüşləri Seçki Məcəlləsinin tələblərinə və seçki qanunvericiliyinə müvafiq surətdə davam etdirilir.

Seçkiöncəsi mühiti səciyyələndirən ən mühüm amillərdən biri sabitliyin mövcud olmasıdır. Azərbaycanda sarsılmaz ictimai-siyasi sabitlik seçkilər dövründə də özünü göstərir. Digər tərəfdən, seçkiöncəsi mühiti xarakterizə edərkən hər bir namizəd üçün bərabər şərait və imkanların yaradılmasını, yeni demokratik seçki mühitinin formalaşdırılmasını da xüsusi olaraq qeyd etmək lazımdır. Azərbaycan bütün dövrlərdə demokratik dəyərlərə və ənənələrə sadiq olduğunu nümayiş etdirir. Təsadüfi deyil ki, seçkilərdə müşahidəçi qismində təmsil olunan beynəlxalq təşkilatların nümayəndələri, eləcə də müxtəlif ölkələr və təşkilatlar Azərbaycanın zəngin seçki təcrübəsinə malik olduğunu və demokratiya yolunda inamla irəlilədiyini bildirirlər. Bu seçkilər ərəfəsində də mövcud olan demokratik şərait beynəlxalq standartlara tam cavab verir və seçkilərin ədalətli, şəffaf və qanunlara müvafiq surətdə keçirilməsini təmin edir. Təbliğat-təşviqat mərhələsində namizədlər onlar üçün yaradılmış imkanlardan istifadə edirlər. Onlar artıq İctimai Televiziya və Radioda ödənişsiz efir vaxtından, həmçinin digər media orqanlarında ödənişli təbliğat aparmaq imkanından istifadə ediblər. Namizədlər, eyni zamanda, seçki marafonunda onlar üçün ayrılmış müvafiq yerlərdə görüşlər keçirir, öz platformalarını seçicilərə çatdırmaq imkanından yararlanırlar. Bütün bunlar Azərbaycanda seçki mühitinin demokratikliyi və şəffaflığını göstərir.

**- Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat kampaniyasını necə davam etdirir?**

- Yeni Azərbaycan Partiyası seçki prosesinin birinci mərhələsini uğurla başa vurdu. 2018-ci il fevral ayının 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirildi və qurultayda aprel ayının 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərində partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edildi. Daha sonra partiyamız tərəfindən cənab İlham Əliyevin prezidentliyə namizədliyinin qeydə alınması üçün toplanmış seçici imzaları Seçki Məcəlləsinin tələblərinə və MSK tərəfindən qəbul edilmiş təlimata müvafiq olaraq tələb edilən sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim etdi. Martın 5-də isə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov tərəfindən prezidentliyə namizədlik vəsiqəsi cənab İlham Əliyevə təqdim olundu.

YAP martın 19-dan etibarən təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində seçicilərlə görüşlər keçirilir, partiyamızın prezidentliyə namizədi cənab İlham Əliyevin seçki platforması seçicilərə çatdırılır. Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat kampaniyasının bütün üsul və vasitələrindən müvəffəqiyyətlə istifadə edir. İctimai Televiziya və Radioda ödənişsiz efir vaxtından səmərəli istifadə olundu, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son 15 il ərzində keçdiyi dinamik və hərtərəfli inkişaf yolu, görülən işlər və qarşıda duran hədəflərə bağlı məsələlər seçicilərin diqqətinə çatdırıldı. Partiyamız rayon və şəhərlərdə seçicilərlə görüşlərə də xüsusi önəm verir. Bu iş bir neçə istiqamətdə aparılır. Birincisi, böyük mitinq-konsertlərin keçirilməsidir. Bu günə qədər partiyamız tərəfindən 33 mitinq-konsert keçirilib, 350 mindən çox seçici iştirak edib. İkincisi, YAP-ın təbliğat qrupuna daxil olan Milli Məclisin deputatları, ziyalılar, elm və mədəniyyət xadimlərinin iştirakı ilə respublikanın bütün şəhər və rayonlarında seçicilərlə görüşlər təşkil edilir. Bu görüşlərin sayı 1200-dən artıq olub, görüşlərdə təxminən 1 milyondan artıq seçici iştirak edib. Yüksək fəallıq şəraitində baş tutan görüşlərdə seçicilər öz fikir və rəylərini bildirir, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticələrini olduqca yüksək qiymətləndirirlər...

**- Siyavuş müəllim, yeri gəlmişkən, istər sosioloji sorğular, istərsə də görüşlər zamanı səsləndirilən fikirlər mühüm bir reallığı ifadə edir: Azərbaycan xalqının mütləq əksəriyyəti cənab İlham Əliyevi dəstəkləyir. Bu reallığı şərtləndirən başlıca amillər hansılardır?**

- Bəli, seçicilərlə keçirilən görüşlər və rəy sorğuları zamanı ifadə olunan fikirlər cənab İlham Əliyevin Azərbaycan xalqının alternativsiz seçimi olduğunu göstərir. Vətəndaşlar Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçdiyini, bu hərtərəfli və dinamik inkişafın bütün sahələri əhatə etdiyini bildirirlər. Azərbaycanın gələcək inkişafı məhz Prezident İlham Əliyevin adı ilə bağlı olduğu üçün vətəndaşlar bu inkişafın, sabitliyin davam etməsi üçün yenə də cənab İlham Əliyevə səs verəcəklərini bəyan edirlər. Yeni xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması naminə cənab İlham Əliyevi dəstəkləyir. Seçicilər qeyd edirlər ki, ölkəmizi parlaq gələcəyə apara biləcək lider məhz Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevdir. Əlbəttə, xalqın birmənalı seçiminin Prezident İlham Əliyev olması təsadüfi deyil. Çünki Azərbaycan ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib. Azərbaycan öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib. Təsadüfi deyil ki, son 14 ildə, yəni 2003-2014-cü illər ərzində ümumi daxili məhsul 3,2, sənaye məhsulu istehsalı 2,6, kənd təsərrüfatının ümumi məhsul istehsalı 1,7 dəfə artıb, açılmış yeni iş yerlərinin sayı 1 milyon 958 min 400 olub. Həyata keçirilən iqtisadi siyasət mühüm inkişaf göstəricilərinin qeydə alınmasını təmin etməklə yanaşı, sosial müdafiə sahəsində də qarşıya qoyulan məqsədlərə çatmağa imkan verib. Bəhs olunan dövrdə orta aylıq əmək haqqı 6,8, orta aylıq pensiya haqqının miqdarı isə 8,6 dəfə artıb. Yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə düşüb, işsizliyin səviyyəsi isə 5 faizə enib.

Pozitiv nəticələrin - inkişaf göstəricilərinin qeydə alındığı sahələrdən biri təhsil və səhiyyə sektorlarıdır. Ötən müddət ərzində dövlət büdcəsində təhsilə ayrılan xərclər 7,6 dəfə artıb. Dövlət büdcəsindən səhiyyəyə çəkilən xərclərdə isə 13,5 dəfə artım olub. Bundan başqa, 3100 yeni məktəb binası tikilib və ya əsaslı şəkildə təmir olunub. Tikilən və ya təmir olunan tibb müəssisələrinin sayı isə 635-dir. Bütün bunlar, nəticə etibarilə, strateji sahələr olan təhsil və səhiyyənin inkişafını təmin edib, Azərbaycanın tərəqqisinə xidmət edib. Qeyri-neft sektorunun inkişafı və yüksək texnologiyalar sahəsində də ardıcıl və məqsədyönlü işlər görülüb, mühüm nailiyyətlər əldə edilib. Sözügedən dövr ərzində sahibkarlara 2 milyard 90 milyon manat məbləğində kreditlər verilib, sahibkarlıq subyektlərinin sayı 4,3, ixracın həcmi isə 6 dəfə artıb. Turizm obyektlərinin sayında isə artım 2,2 dəfə olub. Ölkəyə gələn turistlərin sayı 2 milyon 696 min olub ki, bu da 4,6 dəfə artım deməkdir. “Azerspace” və “Azersky” adlı peyklər orbitə buraxılıb və hazırda ölkə əhalisinin 78 faizi internet istifadəçisidir.

Prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələri əsasında infrastrukturun yenilənməsi istiqamətində də sistemli tədbirlər həyata keçirilib. Bunun nəticəsi kimi, ölkə üzrə 47 min km qaz xətti çəkilib, təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 98 minə çatıb. 9956 km su xətləri çəkilib, əhalinin 66,9 faizi fasiləsiz içməli su ilə təmin olunub. Tikilmiş elektrik stansiyalarının sayı isə 30-dur. İnfrastruktur quruculuğu çərçivəsində ən mühüm göstəricilərdən biri son 14 il ərzində 12 min 300 km avtomobil yolunun çəkilməsi, 443 körpünün tikilməsidir. Bütün bunlar insanların həyat şəraitinin yaxşılaşmasına, vətəndaş məmnunluğunun artmasına xidmət edib.

Ötən müddət ərzində cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən birini qaçqın və məcburi köçkünlərin problemlərinin çevik və effektiv şəkildə həll edilməsi təşkil edib. Qaçqın və məcburi köçkünlərə 5,6 milyard manat məbləğində vəsait ayrılıb, onlar üçün tikilmiş yaşayış kompleksinin sayı 92 olub. Beləliklə, 48 300 ailə və ya 245 min nəfər yaşayış sahəsi ilə təmin olunub. Aylıq yaşayış xərcləri üçün müavinətlər 4, kommunal xərclər üçün müavinətlər isə 4,5 dəfə artıb.

Mədəniyyət və idmanın inkişafı yönündə də ardıcıl tədbirlər həyata keçirilib, bu sahələrə xüsusi diqqət və qayğı göstərilib. Mədəniyyətin inkişafına ayrılmış vəsaitin həcmi 45,5 milyon manatdan 140,3 milyon manata çatdırılıb. Ölkə üzrə 244 mədəniyyət obyekti tikilib və ya təmir olunub. İdmanın inkişafına yönələn xərclər isə 41,4 milyon manatdan 239,4 milyon manata çatdırılıb. Bunun nəticəsidir ki, Azərbaycan idmançıları ölkəmizi beynəlxalq arenada uğurla təmsil edərək 8,5 min medal qazanıblar. Bunlarla yanaşı, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində modernləşmə və islahatlar xətti davam etdirilib, dərin konseptual əsaslara söykənən və bütün sahələri əhatə edən proqramlar uğurla icra olunub. 15 il ərzində Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirib, Dünya İqtisadi Forumunun “2017-2016 Qlobal Rəqabətlilik Hesabatı”nda 35-ci pillədə qərarlaşıb və MDB məkanında liderliyini qoruyub saxlayıb. Azərbaycan dünyada ən çox islahat aparan qabaqcıl ölkələrdən biri kimi tanınıb. Ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olub.

Digər tərəfdən, ictimai-siyasi sabitliyin qorunması və daha da gücləndirilməsi Prezident İlham Əliyevin daxili siyasətinin əsas prioritetlərindən biri olub. Azərbaycan bütün dünyada sabitlik adası kimi tanınıb, ölkəmizdə etibarlı təhlükəsizlik mühiti formalaşdırılıb. Buna paralel olaraq demokratik islahatlar davam etdirilib, insan hüquqları və azadlıqlarının təmin olunması diqqət mərkəzində olub. Bunun nəticəsi kimi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nəticələr əldə olunub. İslahatlar həmçinin idarəetmə sahəsini də əhatə edib. Konstitusion və institusional islahatlar idarəetmədə yeni keyfiyyət mərhələsi yaradıb. Gənclərin siyasi həyatda fəal iştirakını təmin etmək üçün yaş məhdudiyyəti aradan qaldırılıb, respublikamızda yeni vitse-prezidentlik institutu yaradılıb, vətəndaşlara dövlət diqqəti və qayğısı gücləndirilib. Dayanıqlı inkişafın, ərzaq təhlükəsizliyinin, icbari tibbi sığortanın tətbiqi ilə bağlı xüsusi layihələr həyata keçirilib. “ASAN” xidmətin, Elektron hökumətin, Dövlət İmtahan Komissiyasının yaradılması, bələdiyyə idarəçiliyində effektivliyin artırılması, müxtəlif idarəetmə orqanlarının birləşdirilərək funksionallığının artırılması idarəetmənin təkmilləşdirilməsinə mühüm töhfələr verib. Azərbaycanın gücünü və qüdrətini artıran strateji əhəmiyyətli amillərdən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu, səmərəli və praqmatik xarici siyasətin həyata keçirilməsi olub. Bunun nəticəsi kimi, ölkəmizin beynəlxalq mövqeyi olduqca möhkəmlənib, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan etibarlı tərəfdaş kimi tanınıb. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edib. Bundan başqa, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli mövqe nümayiş etdirib, hücum diplomatiyası uğurla davam etdirilib. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər müxtəlif beynəlxalq tribunalardan dünya ictimaiyyətinə çatdırılıb, İƏT-ə üzv olan ölkələr Ermənistanı işğalçı ölkə kimi tanıyıb, Avropa Şurası, ATƏT və digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul edib, “Xocalıya ədalət!” beynəlxalq kampaniyası uğurla davam etdirilib, 16 ölkə Xocalı soyqırımını tanıyıb.

Əlbəttə, bütün bu tədbirlər və nailiyyətlər davamlı xarakter daşıyır, qarşıda duran hədəflərin reallaşdırılması isə Azərbaycanın inkişaf yolunda əmin addımlarla irəliləməsini, yeni və daha möhtəşəm uğurlar əldə etməsini təmin edəcək. Bu hədəflər sırasında Azərbaycanda dayanıqlı iqtisadiyyatının qurulmasının tam təmin olunması, iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi, xarici investisiyaların stimullaşdırılması məqsədilə azad iqtisadi zonaların yaradılması, regionlarda müasir və əməktutumlu müəssisələrin yaradılması, yeni iş yerlərinin açılması, müasir infrastrukturun yaradılması üzrə tədbirlərin davam etdirilməsi yer alır. Bundan başqa, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması, əhalinin sosial müdafiəsi sisteminin mütərəqqi dünya təcrübəsi əsasında daha da təkmilləşdirilməsi, icbari sığortanın əhatə dairəsinin genişləndirilməsi, idarəetmə sahəsində islahatların davam etdirilməsi də qarşıda duran hədəflərdəndir. Ən əsası, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, dünya enerji təhlükəsizliyi sistemində Azərbaycanın mövqeyinin gücləndirilməsi, ölkəmizin beynəlxalq multikultural, mədəni, humanitar və idman sahələrini əhatə tədbirlərin bundan sonra da uğurla həyata keçirilməsi, işğal altında olan ərazilərimizin azad edilməsi üçün bütün səylərin artırılması kimi məsələlər strateji hədəflər kimi müəyyənləşdirilib.

Bütövlükdə, sadalanan möhtəşəm nailiyyətlər göstərir ki, cənab İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra verdiyi bütün vədlərə əməl edib, Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Bu isə xalqın Prezident İlham Əliyevə inamını və güvənini daha da artırıb. Əminliklə söyləmək olar ki, bu reallıqlar aprelin 11-də prezident seçkilərində özünü göstərəcək və Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev növbəti dəfə qələbə qazanacaq!

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Xaçmazlıların seçimi Cənab İlham Əliyevdir






Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Hülövlü, Qalağan və Aşağı Zeyid kənd seçiciləri ilə görüş keçirib.

Görüşü YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsinin sədri Nazim Ağayev açaraq, 11 aprel tarixinin Azərbaycanın gələcək inkişaf yolunda önəmli zaman olduğunu bildirib. O, qeyd edib ki, son 15 il ərizində qalibiyyətlər yaşadığımızdan hər bir azərbaycanlının seçimi yalnız və yalnız Cənab İlham Əliyev olacaq: "Azərbaycanın iqtisadi inkişafı, siyasi sabitlik, sərhədlərimizin təhlükəsizliyinin təmini, dünyanın stabil dövlətlərindən birinə çevrilməsi Azərbaycan Prezidenti İlham Əliyevin məqsədli fəaliyyətinin məntiqi nəticəsidir. Şübhəsiz ki, bu inkişafın təməlində uğurlu iqtisadi və siyasi islahatlar dayanır. Bu gün heç bir dövlət Azərbaycanın həyata keçirdiyi layihələrə müdaxilə edə bilmir. Bu, Prezidentimizin böyüklüyü, müdrikliyi, iradəsi və qətiyyətli siyasətinin nəticəsidir. Hülövlü, Qalağan və Aşağı Zeyid kənd seçicilərini ölkəmizin gələcək inkişafına - Cənab İlham Əliyevə səs verməyə çağırıram".

Tədbirdə seçicilərdən Yavər Qasımov, Ağalar Hacıyev, Vəfa Məmmədova, Arif Manafov və başqaları çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurları və siyasəti dəstəklədiklərini bildiriblər. Qeyd olunub ki, Azərbaycan dövlətinin prioritet istiqamət olaraq, qəbul etdiyi sosialyönümlü siyasət xətti də uğurla davam etdirilir. Çıxış edən seçicilər vurğulayıblar ki, növbəti 7 ili etibar edəcəyimiz namizəd artıq məlumdur - Cənab İlham Əliyevlə irəli!

## Şamaxı seçiciləri "İlhamla irəli" devizi ilə seçkilərə gedir






Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Şamaxı rayonunda uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Mərzəndiyə kəndində seçicilərlə keçirilən növbəti görüşdə YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsinin üzvləri Ağarza Bayramov, Fatma Quliyeva, Hacıbaba Şıxıyev, Eyvaz Eminaliyev Nəzakət Abdulrazaqova, Namik Rzazadə və Güllü Babaşova çıxış ediblər.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsinin təbliğat qrupunun üzvü Eyvaz Eminaliyev qeyd edib ki, bu gün hər bir Azərbaycan vətəndaşı məmnunluq hissi ilə dərk edir ki, ölkəmizin hərtərəfli inkişafı birbaşa ölkə Prezidenti, YAP Sədri İlham Əliyevin adı və həyata keçirdiyi siyasətlə bağlıdır: "Çünki Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçib, möhtəşəm tarixi nailiyyətlər qazanıb". Rayon təbliğat qrupunun digər üzvü Nəzakət Abdulrazaqova isə, çıxışında bildirib ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində görülən işlər nəticəsində, Azərbaycanın hər bir rayonu, hətta kəndləri belə inkişaf etdirilib: "Əminəm ki, bu nailiyyətlərin davamlı olması üçün bütün seçicilər, o cümlədən, şamaxılılar aprelin 11-də Azərbaycan xalqının alternativsiz lideri Cənab İlham Əliyevə səs verəcəklər".

Tədbirlərdə Şəhriyar kənd sakinlərindən Ağamurad İsrafilov, Abdullaşaiq Abdullayev və Lumuxanım Dadaşbalayeva çıxış edərək, Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə, dəstəkləndiyini qeyd edərək, 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qobustan rayonunda təbliğat-təşviqar kampaniyası uğurla davam etdirilir






Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Qobustan rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində Bədəlli və Nabur kənd seçiciləri ilə növbəti görüşlər keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev çıxış edərək, qeyd edib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev vətəndaşların arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, aparılan düzgün və məqsədyönlü siyasət nəticəsində, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir.

F.Gülaliyev bildirib ki, bütün bunlar Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. O, bu uğurların davamı naminə seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə təbliğat-təşviqat qrupunun üzvü Cəfərov Zaur çıxışında ölkəmizin son illərdə qazandığı iqtisadi nailiyyətlərdən danışaraq, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddətdə Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olduğunu qeyd edib. Bildirib ki, Yeni Azərbaycan Partiyası seçkilərə böyük inamla gedir. Əminik ki, partiyamız ötən seçkilərdə olduğu kimi, aprelin 11-də keçiriləcək prezident seçkilərində də qələbə qazanacaq.

Görüşlədə kənd sakinlərindən Seyidov İnkişaf, Canatov Sabir, Balayeva Anamxanım və başqaları çıxış edərək, bildirdilər ki, ölkəmizin sürətli inkişafı hər bir Azərbaycan vətəndaşında qürur və iftixar hisslərini formalaşdırır. Eyni zamanda, bu inkişafın hər bir vətəndaşın həyatında dəyişikliklər üçün əsas verməsi inamımızı şərtləndirən amildir. Çıxış edənlər 11 aprel seçkilərində mütəşəkkil şəkildə seçki məntəqələrinə gedərək, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Suraxanı gəncləri Cənab İlham Əliyevə səs verəcəklər





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində gənclərlə görüş keçirib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsinin və rayon təşkilatının sədri Vüqar Seyidov çıxış edərək Azərbaycanın çox mühüm bir siyasi kampaniya - prezident seçkiləri ərəfəsində olduğunu bildirərək, ölkəmizdə aparılan dövlət-gənclər siyasəti və bu siyasət sayəsində yaradılan münbit şəraitdən, Azərbaycanın bu illər ərzində qazandığı uğurlardan danışıb və gəncləri düzgün seçim etməyə, gələcəyimiz naminə ən layiqli namizədə, partiyanın Sədri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxış edərək Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin getdikcə gücləndiyini, həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış edən və müstəqil xarici siyasət yürüdən milli dövlətlərin etibarlı strateji tərəfdaşına çevrildiyini vurğulayıb.

Ardı Səh. 6




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
8 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-5

Millət vəkili Cənab İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasi-ideoloji kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin etməklə, Ulu Öndər Heydər Əliyevin ideyalarının yaşatdığını, inkişaf etdirdiyini və ölkəmizi aydın sabahlara apardığını qeyd etmişdir.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin gənclərin yanında olduğunu, hər zaman onlara dəstək verdiyini vurğulayıb. S.Orucov Azərbaycanda gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi və dövlət idarəçiliyində iştirakının gerçəkləşdirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirdiyini qeyd etmişdir. S.Orucov gəncləri Azərbaycanın firəvan gələcəyi naminə, Dahi Öndər Heydər Əliyev siyasətinə və bu siyasəti uğurla davam etdirən Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə gənclər adından çıxış edən Pərvin Əhmədova, Arzu Məmmədzadə, Ülviyyə Mədətova və İbrahim Heydərov aprelin 11-də Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.

## Qusarda seçicilərlə görüşlər davam edir






YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir. Dünən təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Əniğ kənd seçiciləri ilə növbəti görüş keçirilib.

Görüşdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə, ölkəmizdə sabitlik və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğunu və güclü dövlətə çevrildiyini bildirib: "2003-2018-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti artıb, ölkəmizin siması bütünlüklə dəyişib və əhalinin həyat səviyyəsi yüksəlib. Xalqın böyük rəğbət və inamını qazanmış Cənab İlham Əliyevin prezidentliyə namizədliyi geniş ictimaiyyət tərəfindən 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə dəstəklənəcəyi şübhəsizdir".

Rayon şöbəsinin sədri müstəqil Azərbaycanın daha böyük uğurlar əldə etməsi naminə, seçiciləri fəal olmağa və partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisin üzvü Azər Badamov və YAP rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvü Nadirşah Şirinov çıxış edərək, 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə seçicilər adından çıxış edən Abdulla Seydiyev, Yavər Dövlətov və Yevrulla Qəmbərov 11 aprel 2018-ci il tarixdə hamı, birmənalı olaraq, partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Ağdaşlıların seçimi dəyişməzdir






11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunun mədəniyyət işçiləri və Orta Ləki kənd seçiciləri ilə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov son 15 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən danışıb. Rayon təşkilatı sədri, ölkədə bütün sahələrə olduğu kimi, dövlət tərəfindən mədəniyyət və incəsənət sahəsinə də böyük diqqət ayrıldığını bildirib.

Azərbaycan mədəniyyətinin bütün dünyaya nümayiş etdirilməsinə diqqət çəkən C.Osmanov bütün bunların ölkə başçısının Azərbaycan mədəniyyətinə olan diqqət və qayğısının təzahürü olduğunu bildirib və seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Millət vəkili Sabir Hacıyev çıxışında dövlət başçısının həyata keçirdiyi daxili siyasətdən söz açaraq, bildirib ki, keçirilən abadlıq-quruculuq işləri sayəsində şəhər və kənd anlayışı demək olar ki, aradan qalxıb və bütün bunlar ölkə başçısı Cənab İlham Əliyevin yorulmaz əməyinin nəticəsidir.

Görüşdə çıxış edən millət vəkili Elman Nəsirov son illər Azərbaycan xalqının keyfiyyətcə yeni, daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoyduğunu bildirib. Qeyd edib ki, bu, milli ideologiyanın tamamilə formalaşdığı, hüquqi və demokratik dövlət quruculuğu prosesinin sürətləndiyi bir mərhələdir: "Azərbaycan dövlətinin ilbəil artan iqtisadi və siyasi qüdrəti, davamlı inkişaf ölkəmizi regionun lider dövlətinə çevirib. Təbii ki, bu uğurların əldə olunmasında ölkədəki sabitlik və təhlükəsizlik əsas şərtdir".

Seçicilər adından çıxış edən Rasim Seyidov, Vüqar Nəbiyev, Amil Ağayev, Seyfəddin Feyzullayev, Rafiq İsgəndərov, Natavan Ağayeva və Camal Xəlilov qeyd ediblər ki, onlar Ulu Öndər Heydər Əliyev siyasi kursuna sadiqdirlər və seçimləri də bəllidir. Bildirilib ki, aprelin 11-də yekdilliklə partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

## Balakən seçiciləri parlaq gələcəyə səs verəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Balakən rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində rayonun Yeni Şərif kənd seçiciləri ilə növbəti görüş keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupunun üzvləri çıxış edərək, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində həyata keçirilən qlobal layihələrdən, qəbul olunan sosial-iqtisadi dövlət proqramlarından, əldə olunan daxili və xarici uğurlu siyasətdən danışıblar. Çıxış edənlər bu uğurların davam etdirilməsi üçün seçiciləri fəal olmağa və 11 apreldə məntəqələrə gedərək, Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə Yeni Şərif kənd ağsaqqalları adından çıxış edən YAP veteranı Ramazan Xanayev seçiciləri Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan haqqında deyimlərini xatırlayaraq, Onun varisi Cənab İlham Əliyevin xalqın sosial rifah halının yaxşılaşdırılması, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində gördüyü işlərdən, həyata keçirdiyi müdrik siyasətdən danışdı. O, həmişə olduğu kimi, bu dəfə də seçkilərdə fəal olacaqlarını və Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Şərif kənd ziyalıları adından çıxış edən YAP fəalı Sabir Xoçberov rayonun təhsil sistemində aparılan islahatlardan, yeni məktəb binalarının tikintisindən, müəllimlərin diaqnostik yolla əmək haqlarının artırılmasından geniş söhbət açaraq, seçki günü Yeni Azərbaycan Partiyasının namizədini





dəstəkləyəcəklərini bildirib.

Görüşdə kənd ağbirçəkləri adından çıxış edən Meysarat Qaysayeva 11 apreldə yalnız və yalnız İlham Əliyev Cənablarına səs verəcəklərini söyləyib.

Görüşdə Milli Məclisin üzvü Nəsib Məhəməliyev çıxış edərək, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin vətəndaşların arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət apardığını bildirib. Qeyd edib ki, insanların sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür - pensiyalar artırılır və yeni iş yerləri yaradılır. O, bu uğurların davamı naminə seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Ağdam seçiciləri alternativsiz Liderə səs verəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdam rayonunun Quzanlı köçkün qəsəbəsində seçicilərlə növbəti görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Ağdam rayon təşkilatının təbliğat qrupunun rəhbəri Hüseyn Bayramov 2003-cü ildən Cənab Prezident İlham Əliyevin Azərbaycan xalqının sosial rifahının yüksəldilməsi sahəsində, iqtisadiyyatın və mədəniyyətin inkişafında, əhalinin sosial problemlərinin həllində çox vacib işlər gördüyünü diqqətə çatdırıb: "Heç bir dövlətin, belə qısa müddət ərzində, qazana bilmədiyi uğurları Prezident İlham Əliyev öz gərgin əməyi, istedadı, bacarığı sayəsində reallaşdıraraq, Azərbaycanı qüdrətli dövlətə çevirib.

Ardı Səh. 8

# Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir



**Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlunun yap.org.az-a müsahibəsi**

***- Hikmət müəllim, aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Hazırda ölkəmizdəki seçki mühitini necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, hər bir demokratik cəmiyyətdə seçki ili ictimai-siyasi mühit üçün fəal dövr kimi səciyyələndirilir. Azərbaycanda da belədir. Artıq Azərbaycan cəmiyyətində özünəməxsus demokratik seçki ənənələri formalaşıb və bu ənənələr, hər şeydən əvvəl, insan hüquq və azadlıqları, eyni zamanda, seçki hüququna əsaslanır. Ona görə də, hesab edirəm ki, Azərbaycan seçici fəallığı baxımından bir sıra Qərb ölkələrindən daha irəlidədir. Azərbaycanda seçki mühitindən danışdıqda, ilk növbədə, demokratik seçkilərin keçirilməsini təmin edəcək ictimai-siyasi sabitliyi qeyd etmək lazımdır. İstənilən cəmiyyətdə sabitlik, hər şeydən əvvəl, hüquqi mexanizmlərin lazımi səviyyədə işləməsini təmin edən vasitə kimi çıxış edir. Bundan sonra siyasi sistemin demokratik institutlarının funksionallığı məsələsidir ki, bu da ölkəmizdə mövcuddur. Burada önə çıxan əsas institut isə ölkənin siyasi sisteminin lokomotivi hesab olunan siyasi partiyaların seçki kampaniyasına qoşulmasıdır. Bu demokratik yarışa xeyli sayda partiya qoşulub. Seçkini müşahidə etmək üçün çoxsaylı beynəlxalq və regional təşkilatlara dəvətnamələr göndərilib. Bütün bunlar seçkiqabağı demokratik mühitin təmin olunmasının göstəriciləri hesab edilməlidir. Ona görə də seçki mühitini olduqca müsbət qiymətləndirmək olar.

***- Hazırda prezident seçkiləri kampaniyasının təbliğat-təşviqat mərhələsi davam edir. Yeni Azərbaycan Partiyasının namizədi, cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası ilə bağlı düşüncələriniz nədən ibarətdir?***

- Yeni Azərbaycan Partiyası öz layiqli namizədinin təbliğat və təşviqat kampaniyasını yüksək səviyyədə qurub. Seçki Məcəlləsinə uyğun olaraq prosedurlar düzgün müəyyənləşdirilib, görüləcək işlər əvvəlcədən təyin olunmuş təqvim əsasında ardıcıllıqla müəyyən edilib və təbliğat-təşviqat işləri yüksək səviyyədə təşkil olunub.

Seçicilərlə görüşlərdə hiss edirik ki, əslində Prezident İlham Əliyevin təbliğat və təşviqat kampaniyasına ehtiyac yoxdur. Çünki seçicilərlə görüşdə aydın olur ki, hər bir seçici cənab Prezidentin fəaliyyəti ilə bağlı ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir. Bu, Azərbaycan xalqının mövqeyidir. Son 15 il ərzində cənab Prezidentin fəaliyyəti Azərbaycan xalqının gözləri önündədir. Ötən 15 il ərzində dövlət başçısı hər gün yeni obyektlərin açılışında iştirak edib. Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də hesab edirik ki, cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir. Ötən 15 il ərzində dövlət başçısının reytinqi xalq arasında əhəmiyyətli dərəcədə yüksəlməkdə davam edib. Bu sosial-siyasi göstərici ölkə rəhbərinin effektiv fəaliyyətinin nəticəsidir. Azərbaycanın dövlət və milli maraqlarının bariz şəkildə müdafiə edilməsinin nəticəsidir ki, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevin parlaq qələbə qazanacağı heç kəsdə şübhə doğurmur.

***- Məlum olduğu kimi, Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Azərbaycan regionun ən güclü dövləti olmaqla yanaşı, bölgənin inkişaf paradiqmalarının müəyyənləşdirilməsində birbaşa iştirak edir. Bu mənada qarşıdan gələn prezident seçkilərinin regionun gələcəyi baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Qeyd edim ki, məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında bu gün Azərbaycan beynəlxalq aləmdə nüfuz sahibinə çevrilib. Azərbaycanın rolu artaraq təkcə regional səviyyədə deyil, regionlararası inteqrasiya proseslərində də öz sözünü deyən mühüm faktora çevrilib. Azərbaycan Avropa ilə Asiya qitələrini təkcə coğrafi baxımdan deyil, həm də siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir.

Prezident İlham Əliyevin xarici siyasət strategiyası dünya ictimaiyyəti tərəfindən təqdir olunan model kimi səciyyələndirilir. Çünki Azərbaycanın beynəlxalq səviyyədə qurduğu bütün əlaqələr bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı maraqların təmin olunması prinsiplərinə söykənir.

Ölkəmizin tutduğu inkişaf yolu milli mənafeyi ifadə etməklə yanaşı, bölgənin inkişafına və sabitliyinə də xidmət edir. Buna görə də, Azərbaycanın iqtisadi, hərbi, mədəni və digər sahələrdə həyata keçirdiyi siyasət təkcə özünün deyil, əməkdaşlıq etdiyi qonşu regionlardakı ölkələrin də inkişafına şərait yaradır. Bu isə, ilk növbədə, Azərbaycanın gücünü, qüdrətini göstərir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz böyük regional amilə çevrilib: "Bu gün Azərbaycan öz gücünə arxayın olan, öz gücünə arxalanan, bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda, təcrübəli ölkədir. Azərbaycan artıq böyük bir regional amildir. Sabitlik, təhlükəsizlik və inkişaf amilidir".

Şübhəsiz, Azərbaycan müasir beynəlxalq münasibətlər sisteminin fəal aktorudur və özünün milli maraqlarına müvafiq olaraq beynəlxalq sistemə inteqrasiya olunur. Belə olan təqdirdə, infoimperializmə qarşı etibarlı müdafiə mexanizmi formalaşdırmaq və ölkəmizi, cəmiyyət nümayəndələrini, ayrı-ayrı strateji obyektləri kənar təsirlərdən qorumaq lazımdır. Burada isə aparıcı faktor məhz ölkəyə rəhbərlik edən şəxsin həyata keçirdiyi idarəetmə strategiyasının nə dərəcədə səmərəli olmasıdır. Tərəddüdsüz qeyd etmək olar ki, Azərbaycan xalqının alternativsiz lideri olan cənab İlham Əliyevin milli maraqları, xalqın ali mənafeyini, ölkəmizin suverenliyini qətiyyətlə qoruması infoimperializmin Azərbaycana qarşı mümkün neqativ təsirlərini neytrallaşdırıb. Beləliklə, Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə öz müstəqilliyini qorumağa müvəffəq olub və hazırda müasir beynəlxalq münasibətlər sistemində suveren aktor kimi çıxış etməkdədir.

***- Seçkilər istənilən ölkənin tarixində yeni bir dövrün, inkişaf və islahatlar mərhələsinin başlanğıcı kimi xarakterizə edilir. Siz necə hesab edirsiniz, növbəti prezident seçkiləri Azərbaycanın tarixində hansı rol oynayacaq?***

- Hər seçki yeni başlanğıc olduğu kimi, həm də özünə qədərki mərhələnin davamıdır. Bu mənada demokratik seçkilər həmçinin cəmiyyətin inkişaf ənənələrinin varisliliyini təmin edən vasitədir. Azərbaycan hazırda ən yeni tarixinin mühüm inkişaf mərhələsini yaşayır. Ölkəmiz müasir mürəkkəb beynəlxalq münasibətlər və geostrateji şərtlərdə öz inkişafını davam etdirməyə nail olur. Üstəlik öz təhlükəsizliyini təmin etmək, ərazi bütövlüyünü bərpa etmək üçün hərbi qüdrətini artırır, güclü ordu yaradır və bu ordu Aprel zəfəri kimi ciddi hərbi uğurlara imza atır. Bütün bunlar həm də ölkəmizin idarəetmə, hüquq və iqtisadi münasibətlər sistemində ciddi islahatlarla müşahidə edilir.

Ölkəmizdə işsizliyin, yoxsulluğun aradan qaldırılması istiqamətində çox mühüm addımlar atılır. Qeyri-neft sektorunun inkişafı yeni iqtisadi mərhələnin prioriteti kimi müəyyənləşdirilib. Yeni müasir sənaye mərkəzləri yaradılır, regionlarımız inkişaf edir, olduqca müasir infrastruktur yaradılır. Təhsil, səhiyyə və digər bu kimi mühüm strateji sahələrdə ciddi islahatlar aparılır. Bütün bunlar isə yeni mərhələdə daha dərin və keyfiyyətli islahatlar aparmaq üçün ciddi əsaslar yaradır. Ona görə də 11 aprel tarixində keçiriləcək prezident seçkiləri bütün istiqamətlər üzrə inkişafımızda yeni keyfiyyət mərhələsi yaradacaq.

***- Hikmət müəllim, prezident seçkiləri öncəsi vəziyyəti geniş təhlil etdiniz. Necə düşünürsünüz, 11 aprel prezident seçkilərində Azərbaycan xalqının seçimi necə olacaq?***

- Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olub. Prezident İlham Əliyev şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir.

Lider həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Xalqın lideri, ilk növbədə, insanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacarmalıdır. Ulu öndər Heydər Əliyevin yetkin bir məfkurə kimi xalqımıza təqdim etdiyi azərbaycançılıq ideologiyasının əsasını təşkil edən dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq prinsipləri bu gün milli birliyin əsas təminatçısı kimi çıxış edir. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev isə Öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərməklə yanaşı, innovasiyalara tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin stabil milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə Özünün əsl siyasi lider olduğunu isbatlayıb.

Məhz Azərbaycan xalqının alternativsiz lideri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasətin nəticəsidir ki, bu gün Azərbaycan heç bir xarici qüvvədən asılı deyil, öz enerji, ərzaq və hərbi təhlükəsizliyini təmin etmək iqtidarındadır. Təbii resurslardan düzgün istifadə edilməsi nəticəsində ölkəmiz maliyyə imkanlarını genişləndirib. Bütün sahələr üzrə dinamik inkişaf göstəricilərinə nail olan Azərbaycan qarşıya çıxan maneələri aradan qaldırmaq gücündədir. Bu səbəbdən respublikamız ən çətin vaxtlarda da kənar yardımlara ehtiyac hiss etmir. Bütün dünyanı iqtisadi böhran bürüdüyü zamanda Azərbaycan ciddi zərərə məruz qalmayan azsaylı ölkələrdən biri oldu. Kapital imkanları genişlənən ölkəmiz nəinki kənar yardımlara ehtiyac duymur, hətta özü də donor ölkə kimi çıxış edir. Bir sözlə, Azərbaycan, sözün əsl mənasında, özünü təmin edən dövlətdir. Bütün bu nailiyyətlərin əldə edilməsi isə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində mümkün olub. Ona görə də 11 aprel 2018-ci il prezident seçkilərində xalqın yalnız bir seçimi olacaq: cənab İlham Əliyev.

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-6





Cənab İlham Əliyev dünyanın siyasi arenasında müstəqil siyasət aparan, xalqına və dövlətinə şərəflə xidmət edən siyasətçi kimi tanınıv.” H.Bayramov bu gün bölgədə heç bir layihə Azərbaycanın iştirakı olmadan həyata keçirilmədiyini bildirib. H.Bayramov seçiciləri 11 apreldə Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən rayon təbliğat qrupunun üzvü Natiq Cavadov Cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətdən və bu gün Azərbaycanın əldə etdiyi uğurlar barədə seçicilərə ətraflı məlumat verərək, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Zərdablılar növbəti 7 il üçün də Cənab İlham Əliyevi Prezident görmək istəyirlər






Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı rayonun təhsil işçiləri ilə növbəti görüş keçirib. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Zərdab rayon şöbəsinin sədri Pərvin Mahmudova çıxış edərək, son 15 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılan uğurlardan danışıb. P.Mahmudova dövlətimizin apardığı daxili iqtisadi siyasət nəticəsində, vətəndaşlarımıza xüsusi diqqət və qayğı göstərildiyini, onların həyat şəraitinin yaxşılaşdığını söyləyib. Rayon təşkilatının sədri bu illər ərzində əldə olunmuş nailiyyətləri növbəti 7 il ərzində daha da inkişaf etdirmək üçün seçiciləri Cənab İlham Əliyevin namizədliyini dəstəkləməyə, seçki məntəqələrinə gələrək Ona səs verməyə çağırıb.

Görüşdə prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat qrupunun üzvü, Milli Məclisin deputatı Jalə Əliyeva çıxış edərək qeyd edib ki, Cənab İlham Əliyev ölkəmizin, xalqımızın inkişaf və tərəqqisi üçün misilsiz fəaliyyət göstərib və bu fəaliyyət nəticəsində, O, xalqımızın sonsuz sevgisini və inamını qazanıb. “Ona görə də, əminliklə deyə bilərik ki, 11 aprel tarixi Azərbaycan millətinin və dövlətinin zəfər günü olacaq”.

Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Vüsalə Kərimova və Mübariz Umarov zərdablı seçiciləri, hər zaman olduğu kimi, bu dəfə də seçkilərdə yüksək fəallıqla iştirak etməyə, xalqımızı nurlu sabahlara aparan Ulu Öndərin bəşəri ideyalarını uğurla davam etdirən Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Həsən Abulov, Rüxsarə Eminova, Sədiyar Xəlilov, Lalə Əmrəliyeva təhsil işçiləri adından çıxış edərək, 11 aprel 2018-ci il tarixində bütün sahələrdə, o cümlədən, təhsil sahəsində qazanılan uğurların daha da inkişafı naminə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## İsmayıllı seçiciləri qərarlıdır





11 aprel pezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayonun İvanovka kəndində keçirilib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Həsən Həsənov, Valeh Salehov çıxış edərək, qeyd ediblər ki, Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən müddətdə iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi diqqət mərkəzində saxlanılıb: “Yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafı və şaxələndirilməsi istiqamətində mühüm uğurlar əldə edilib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib və minlərlə yeni iş yeri açılıb. Genişmiqyaslı infrastruktur layihələri reallaşdırılıb. Biznes və investisiya mühiti davamlı surətdə yaxşılaşdırılıb, özəl sektora dövlət dəstəyi və siyasi, makroiqtisadi sabitlik ölkədə güclü sənayenin formalaşdırılması üçün əlverişli şərait yaradıb”.

Görüşdə çıxış edən İvanovka kənd sakinləri Oleq Radayev, Nadejda Jabina və başqaları qeyd ediblər ki, seçimimiz bəllidir, onu qorumaq, təsdiqləmək üçün seçki məntəqələrinə gəlib səsvermə hüququndan istifadə edərək, Azərbaycanı işıqlı gələcəyə aparan Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlu davamına Cənab İlham Əliyevə səs verəcəklər. “İlhamla irəli” deyək ki, növbəti 7 ilin uğurlarından fərəh hissi ilə danışaq.

## Şəki seçiciləri “İlhamla irəli” deyir






11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə 400 nəfər səhiyyə və mədəniyyət işçiləri ilə görüş keçirilib.

Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü nəhəng işlərdən danışıb: “Prezident İlham Əliyevin müdrik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb”. O, əmin olduğunu bildirib ki, səhiyyə və mədəniyyət işçiləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə YAP Siyasi Şurasının üzvü, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, ŞREM-in direktoru Yusif Şükürlü və YAP Şəki rayon təşkilatı aparatının baş məsləhətçisi Kamil Məmmədov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə gördüyü xeyirli, gərəkli fəaliyyətindən danışıb və seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə seçicilər adından çıxış edənlər artıq öz seçimlərini etdiklərini və 11 aprel tarixində xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəyini bildiriblər.

# Xalq İlham Əliyevə "HƏ" deyir!






## Astarada "İlhamla irəli" şüarı ilə seçicilərlə zirvə görüşü keçirilib

Dünən YAP Mərkəzi Seçki Qərargahının Astara rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Astara şəhər Park-Bulvarında seçicilərlə zirvə görüşü - konsert-mitinq keçirilib.

Böyük bayram əhvali-ruhiyyəsi ilə keçiri-






lən zirvə görüşündə 12 mindən çox astaralı iştirak edirdi. Zirvə görüşünə gələn seçicilərin qonaqları sürəkli alqışlarla qarşılaması və "İlhamla irəli" şüarının dəfələrlə səsləndirilməsi astaralı seçicilərin artıq seçim etdiklərinin göstəricisidir.

Zirvə görüşündə Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək, Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanda bərqərar olan ictimai-siyasi sabitlik və milli təhlükəsizlik şəraiti, eləcə də, ötən 15 il ərzində əldə olunmuş dinamik iqtisadi artım, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası, vətəndaşların sosial rifahının yaxşılaşması, ordu quruculuğu ətrafında seçicilərə ətraflı məlumat verdi. Rayon təşkilatı sədri Azərbaycanı uğurlu sabahlara aparan bu siyasətin, birmənalı olaraq, davam etdirilməsini bildirərək, qarşıdan gələn seçkilərdə hər bir astaralını partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüş-mitinqdə Milli Məclisin deputatı Elmira Axundova çıxış edərək qeyd edib ki, Cənab İlham Əliyevin 15 illik hakimiyyəti dövründə Azərbaycan dövləti regionun ən qüdrətli ölkəsinə çevrilmişdir: "Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, Azərbay-



canın hər bir guşəsi abadlaşır və gözəlləşir. Məhz ölkədə gedən abadlıq-quruculuq prosesi Astara rayonundan da yan keçməmişdir. Bütün görülən işlər insanların maddi rifahının yüksəlməsinə və rahatlığını təmin etməyə hesablanıb". E.Axundova bu uğurlara, sosial rifaha, gələcəyimizin işıqlı sabahlarına görə, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdı. Görüşdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizin böyük inkişaf yolu keçdiyini bildirdi. Ölkəmizdəki mövcud sabitliyin xalq-iqtidar birliyinin və həmrəyliyin ifadəçisi olduğunu diqqətə çatdıran B.Quliyev Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən bu günə kimi Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında yeni dövrün olduğunu, yeni mənzərənin meydana çıxdığını diqqətə çatdırıb. O, astaralı seçiciləri Azərbaycanı beynəlxalq arenada tanıtdıran, inkişafın Azərbaycan modelini dünyaya bəyan edən Cənab İlham Əliyevin siyasi kursunu dəstəkləməyə və işıqlı gələcəyə səs verməyə çağırdı.

Zirvə görüşündə çıxış edən millət vəkili Rüfət Quliyev Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla və dinamik şəkildə davam etdirildiyini bildirdi. Qeyd etdi ki, Cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasəti nəticəsində, əhalinin sosial-iqtisadi durumu yaxşılaşmış, beynəlxalq aləmdə Azərbaycanın nüfuzü daha da artmışdır. Millət vəkili bu uğurların davam etdirilməsi üçün hər zaman dövlətə və dövlətçiliyə sədaqətli olan astaralıların 11 aprel seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə Milli Məclisin deputatı Rəşad Mahmudov, Azərbaycan Tibb Universitetinin kafedra müdiri Vəsadət Əzizov çıxış edərək, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyevin Prezidentliyi dövründə Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sadiq qalması, bu siyasi kursun müasir dövrün tələblərinə uyğun formada həyata keçirilməsi və bunun da nəticəsində, müstəqil Azərbaycanın regionun ən güclü dövlətinə çevrilməsindən söz açdılar. Zirvə görüşünə qatılan astaralı seçicilər Cənab İlham Əliyevin ünvanına sürəkli alqış və "Astaralılar, İlhamla irəli" şüarları səsləndirməklə 11 apreldə partiyanın namizədini dəstəkləyəcəklərini bildiriblər.

Zirvə görüşündə respublikanın tanınmış incəsənət xadimlərinin iştirakı ilə geniş konsert proqramı təqdim olundu.

# Xalq İlham Əliyevə “HƏ” deyir!





### Nəsimi rayonunda seçicilərlə növbəti görüş keçirilib

Dünən YAP Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qarabağ müharibəsi veteranları, şəhid ailələri, Çernobıl faciəsi, eləcə də Əfqanıstan müharibəsi veteranları ilə görüş keçirilib.

Görüşdə çıxış edən Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin sədri, millət vəkili Məlahət İbrahimqızı dövlətimizin əldə etdiyi uğurlar və Azərbaycanın regionun lider dövlətinə, dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrildiyini bildirib. 2003-cü ildən bugünədək Cənab İlham Əliyevin gördüyü işlərə nəzər salan rayon təşkilatının sədri respublikamızda ordu quruculuğu sahəsində qazanılmış uğurlardan da danışıb. M.İbrahimqızı Aprel Zəfərinin düşmənlərimiz üçün gözdağı və dərs olmaqla, “İlhamla irəli!” fəlsəfəsinin işğal altında olan torpaqlarımızın qurtuluş yolu olduğunu qeyd edib. O, seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilər də uğurlu gələcəyimiz naminə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, rayon Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva, Azərbaycan Vətən müharibəsi Veteranları İctimai Birliyinin sədri Fizuli Rzaquliyev, Çernobıl Əlilləri İctimai Birliyinin sədri Mirhəsən Həsənov, Dünya Azərbaycanlılarının Vətənpərvərlik İctimai Birliyinin sədri Nəsimi Qarabağlı, “İrəli” Gənclər Təşkilatının sədri Mirhəsən Seyidov və başqaları çıxış edərək son 15 ildə əldə olunan nailiyyətlərlə yanaşı, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş sabitliyin Prezident İlham Əliyev tərəfindən təmin olunduğunu bildiriblər. Qeyd olunub ki, Cənab İlham Əliyevin apardığı çoxşaxəli siyasi fəaliyyət ölkəmizin siyasi-iqtisadi həyatında böyük uğurların əldə olunması ilə nəticələnib. Növbəti 7 il ərzində Azərbaycanın daha güclü və qüdrətli dövlət olacağına əminliklərini bildirib, seçiciləri Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Görüşdə çıxış edən şəhid ailələrinin üzvləri və veteranlar Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin titanik fəaliyyəti sayəsində görülmüş əzəmətli işləri xüsusi qeyd edib və partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Görüşün sonunda iştirakçılar yekdilliklə “İLHAMLA İRƏLİ” səslənərək, 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsinə çağırış ediblər.

### Zaqatala seçiciləri firavanlığa və sabitliyə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Mazıx və Üçüncü Tala kənd seçiciləri ilə görüş keçirilib. Görüşdə 200 nəfər seçici iştirak edib.





Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Zaqatala rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Habil Qurbanov qeyd edib ki, bu gün Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu və qətiyyətli siyasət, makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksəlməsinə səbəb olub. Rayon təşkilatının sədri Cənab İlham Əliyevin növbəti illərdə də Azərbaycana rəhbərlik etməsi ilə inkişaf və tərəqqimizin daha da artacağını, ölkəmizin daha yüksək qələbələrə imza atacağını nəzərə çatdıraraq, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində, Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Millət vəkili seçiciləri davamlı inkişafa, uğurlu gələcəyə - Cənab İlham Əliyev siyasətinə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən təbliğat qrupunun üzvləri Əsgər Məmmədov, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva, Namidə Süleymanova son illərdə Cənab İlham Əliyevin məharətli idarəçiliyi ilə həyatımızın bütün sahələrində qazanılan uğurları qeyd edərək, bütün bunların 11 aprel seçkilərində YAP-ın möhtəşəm qələbəsinə tam zəmin yaratdığını diqqətə çəkib, partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

### Göyçaylılar uğurlu gələcəyə səs verəcəklər





Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Göyçay rayonunun Yeni-Arx kəndində seçicilərlə görüş keçirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük iqtisadi uğurlardan, həyata keçirilən iqtisadi islahatların əhəmiyyətindən danışıb: “Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində həyata keçirilmiş işlər və qazanılmış uğurlu nailiyyətlər göz önündədir. Azərbaycan əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu daxili və xarici siyasət sahəsində Cənab İlham Əliyevin rəhbərliyi altında böyük inkişaf və tərəqqi əldə edib”.

S.Şükürov kənd sakinlərini 11 aprel 2018-ci il tarixində xalqın alternativsiz namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin üzvləri, Elçin İsmayılov, Zenfira Əliyeva, Namət Şirinov, Rövşən Zamanov, Rövşən Şərifov, kənd sakinlərindən Vidadi Salmanov, Gülay Fərzəliyeva, İbrahim Məmmədov və başqaları çıxış edərək Cənab İlham Əliyevin Azərbaycanın inkişafı və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlərindən danışıblar. Tədbir iştirakçıları vurğuladılar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçib və möhtəşəm tarixi nailiyyətlər qazanıb. Bu illərdə dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Çıxış edənlər aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verəcəklərini qeyd ediblər.

### İsmayıllı seçiciləri davamlı inkişafa səs verəcəklər





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Quşencə kənd seçiciləri ilə görüş keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Ramiz Ağayev, Vidadi Rəhimov, Şəfaqət Rəsulov çıxış edərək, qeyd ediblər ki, son 15 il ərzində Azərbaycan, nəinki MDB dövlətləri, region dövlətləri arasında, həm də bütün dünya miqyasında böyük nailiyyətlər əldə edib. Bunu dünyanın çox mötəbər reytinq siyahılarında Azərbaycanın mövqeyi də sübut edir. Çıxış edənlər bildiriblər ki, Cənab İlham Əliyevin rəhbəliyi ilə ölkəmizin həm beynəlxalq əlaqələri, həm də daxili potensialları nöqteyi-nəzərindən bundan sonrakı 7 il ərzində çox böyük nailiyyətlərin əldə olunması üçün buna imkan verən güclü potensial yaradılıb.

Görüşdə çıxış edən Quşencə kənd sakinləri Vəsidə Mustafayeva, İdris İbrahimov və Natiq Səmədov bildiriblər ki, ölkəmizin sürətli inkişafı hər bir Azərbaycan vətəndaşında qürur və iftixar hisslərini formalaşdırır.

Ardı Səh. 11

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-10

Eyni zamanda, bu inkişafın hər bir vətəndaşın həyatında dəyişikliklər üçün əsas verməsi inamımızı şərtləndirən amildir: "Bu gün inkişaf edən, bütün istiqamətlərdə davamlı olaraq, gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir. Cənab İlham Əliyevə səs verməklə müstəqilliyimizin daha da möhkəmləndirilməsinə, bütövlükdə, ölkəmizin inkişafına səs verəcəyik. Çünki Azərbaycanın xoşbəxt gələcəyi Ulu Öndər Heydər Əliyev siyasəti ilə bağlıdır".

## Ağdaşlı gənclər ölkəmizin davamlı inkişafına səs verəcəklər






Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Ağdaş rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində gənclərlə görüş keçirib.

Görüşdə çıxış edən Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov Azərbaycanda dövlət-gənclər siyasətinə nəzər salaraq, gənclərin hərtərəfli inkişafı - siyasi, ictimai, mədəni, idman, elm və beynəlxalq arenalarda ən yüksək səviyyədə təmsil olunmaları, onların bilikli, təhsilli olaraq yetişmələri, həyat şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərin və həyata keçirilən islahatların nəticəsini verdiyini diqqətə çatdırıb. Millət vəkili Prezident İlham Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində ölkə gənclərinə daim diqqət və qayğı ilə yanaşdığını bildirərək, gənclərimizi onlara olan bu inamı, etimadı doğrultmağa, prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırış edib.

Görüşdə millət vəkili Sabir Hacıyev çıxış edərək ölkədə gənclər üçün yaradılan əlverişli şəraitdən, gənc sahibkarlar üçün verilən imtiyazlardan danışıb. Millət vəkili ölkə başçısının gənclərin inkişafı ilə bağlı imzaladığı dövlət proqramlarının əhatəliliyini qeyd edərək, gəncləri Cənab İlham Əliyev siyasətinə səs verməyə çağırıb.

Görüşdə millət vəkili Elman Nəsirov çıxışında həyata keçirilən dövlət-gənclər siyasətinə nəzər salaraq, gənclərin ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etmək imkanı əldə etməklə yanaşı, həm də özlərini təsdiq edə bildiklərini vurğulayıb. Millət vəkili bildirib ki, Azərbaycan gəncliyinin rifahına, tərəqqisinə və yüksəlişinə yönələn tədbirlər müasir düşüncəli Azərbaycan gəncliyinə stimul verir.

Görüşdə gənclər adından çıxış edən Yunus Nəcəfov, Rəhman Cəfərli, Sevil Əhmədli, Ayna Zehirova və Zülfiyyə Soltanova ölkə başçısı Cənab İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğını yaxından hiss etdiklərini, gənclərlə bağlı həyata keçirilən layihələri yüksək qiymətləndirdiklərini qeyd ediblər. Çıxış edənlər bildiriblər ki, Azərbaycanın daha da güclü dövlətə çevrilməsi, gələcəkdə ölkəmizin davamlı inkişafı naminə, məhz Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə Ağdaş rayon Ağsaqqallar Şurasının sədri Rafiq Nəbiyev çıxışında Azərbaycan Respublikasının iqtisadi və sosial tərəqqi yolunda inamla irəliləməsini, milli demokratiyanın daha da möhkəmlənməsini, ölkəmizin dünyada nüfuzunun artmasını dövlət başçısı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində reallaşdığını bildirib. O, Ağdaşlı gəncləri, həmişə olduğu kimi, bu seçkidə də fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Şəkinin Kiçik Dəhnə kəndinin seçiciləri "İlhamla irəli" deyirlər!





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Şəkidə seçicilərlə görüşlər uğurla davam etdirilir. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə növbəti görüş rayonun Kiçik Dəhnə kəndinin seçiciləri ilə keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü böyük işlərdən danışıb. Natiq bildirib ki, Prezident İlham Əliyevin apardığı müdrik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Kiçik Dəhnə kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə YAP Siyasi Şurasının üzvü, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, ŞREM-in direktoru Yusif Şükürlü və YAP Şəki rayon təşkilatının aparatının baş məsləhətçisi Kamil Məmmədov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə çıxış edən seçicilər də artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixində xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

## Ucar seçiciləri: Xalqın inamı, xalqın səsi, xalqın Lideri "İlhamla irəli!"

Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərini davam etdirir. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri dünən seçicilərlə növbəti görüşü rayonun Boyat kəndində keçirmişlər.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Cənab İlham Əliyev intellekti, istedadı və şəxsiyyəti bütöv vəhdət təşkil edən liderdir. İntellektlə istedadın, elmlə istehsalatın,





ənənə ilə novatorluğun üzvü vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bu günü və sabahına sonsuz, sarsılmaz sədaqət - bunlar Cənab İlham Əliyevi hər kəsə sevdirən keyfiyyətlərdir. Şəhla Abdullayeva qeyd etdi ki, partiyamızın bu günə kimi seçicilərlə keçirilən görüşləri, onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Təbliğat qrupunun üzvləri Alı Babayev və Milli Məclisin deputatı Vüsal Hüseynov çıxış edərək, Yeni Azərbaycan Partiyasının Sədri, Cənab İlham Əliyevin Prezidentiyi dövründə Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sadiq qalması, bu siyasi kursun müasir dövrün tələblərinə uyğun formada həyata keçirilməsi və bunun da nəticəsində, müstəqil Azərbaycanın regionun ən güclü dövlətinə çevrilməsi, eyni zamanda, ölkədə həyata keçirilən misilsiz abadlıq-quruculuq işlərindən və infrastruktur layihələrindən söz açdılar. Çıxış edənlər seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Görüşdə, seçicilər adından Bəylər Mirzəyev və Nərminə Kərimova çıxış edərək, Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub- saxlanılan müstəqilliyimizin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilməsi və onun əbədiliyinin təmin edilməsinin qururverici hiss olduğunu vurğuladılar. Onlar qeyd etdilər ki, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən məqsədyönlü siyasət əminliklə deməyə əsas verir ki, "Azərbaycanın müstəqilliyi əbədidir və dönməzdir!"

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri növbəti görüşü rayonun Bərguşad kənd seçiciləri ilə keçiriblər.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Prezident İlham Əliyev müstəqil Azərbaycanı tərəqqiyə qovuşduran və firavan gələcəyə aparan liderdir. Şəhla Abdullayeva qeyd etdi ki, hər bir azərbaycanlı xoş gələcəyə, yüksək rifaha və dövlətin müstəqilliyinin əbədi olması naminə 11 aprel tarixində "İLHAMLA İRƏLİ" söyləyəcəkdir.

Təbliğat qrupunun üzvləri Alı Babayev və Milli Məclisin deputatı Vüsal Hüseynov çıxış edərək, bildirdilər ki, Azərbaycan xalqı ictimai-siyasi və sosial-iqtisadi həyatının yeni bir dövrünü-müstəqillik dövrünü yaşayır. Bu dövr ərzində ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkəmizin qüdrətini daha da artırmaqdadır.

Seçicilər adından İlahə Süleymanova və Bəxtiyar Yunusov çıxış edərək, bildirdilər ki, Azərbaycan xalqı Cənab İlham Əliyevə inanır, Onun daha xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətini hamılıqla dəstəkləyir.

# Xalq İlham Əliyevə "HƏ" deyir!







## Qəbələ seçiciləri 11 apreldə "İLHAMLA İRƏLİ" söyləyəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupu rayonun Turizm və Otelçilik üzrə Peşə-Tədris Mərkəzinin stadionunda mitinq-görüş keçirib. Tədbirdə Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova və Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov 11 aprel prezident seçkiləri haqqında geniş məlumat verib. O bildirib ki, bundan əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də qəbələli seçicilər Cənab İlham Əliyevə səs verəcəklər.

Mitinq-görüşdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova çıxış edərək, bildirib ki, Cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı ən dinamik inkişaf edən dövlətlər sırasına çıxarıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib və yeniləşib: "Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin məntiqi nəticəsidir". Gülçöhrə Məmmədova uğurların davamlı olması üçün qəbələli seçiciləri 11 apreldə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Mitinq-görüşdə Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu çoxminli seçicilər qarşısında çıxış edərək, Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün sahələrdə qazanılmış uğurlar barədə ətraflı məlumat verməklə, rayonun seçicilərini 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxışında Cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 15 ildə Azərbaycanda əldə edilən uğurlardan danışıb. O, qeyd edib ki, həyata keçirilən müvafiq dövlət proqramları Qəbələnin də inkişafına təkan verib. Məhz buna görə də, qəbələli seçicilər aprelin 11-də bu uğurların davamlı olmasına səs verəcəklər. Tədbir tanınmış incəsənət ustalarının iştirakı ilə konsert proqramı ilə davam edib.








# Cənab İlham Əliyev ölkəmizi davamlı inkişaf və yüksəlişə aparan strateji siyasi kursu inamla davam etdirəcək



*YAP İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmovun yap.org.az-a müsahibəsi*

**- Abel müəllim, məlum olduğu kimi aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyev bu seçki kampaniyasının favoritidir. Bu haqda düşüncələrinizi bilmək istərdik...**

- Hər bir siyasi partiyanın cəmiyyətdə layiqli mövqe qazanaraq milyonların inam və etimad ünvanına çevrilməsi həm də ona rəhbərlik edən liderin idarəçilik keyfiyyətləri ilə şərtlənir. Ümummilli maraqları təmsil edən lider və onun rəhbərlik etdiyi siyasi təşkilat konkret məqsədlər irəli sürərək bunlara nail olmaq üçün ictimai şüura pozitiv təsir imkanlarından səmərəli istifadə etməyə çalışır. Xalqdan mandat alaraq hakimiyyət olimpinə yüksəlmiş partiyalar fəaliyyətləri ilə həm də fərdlərin arzu və istəklərinin real təminatçısına çevrilirlər.

Fevral ayında VI qurultayını keçirmiş hakim Yeni Azərbaycan Partiyasının (YAP) dövlət idarəetmə sistemində davamlı uğur və nailiyyətlərinə yol açan ən başlıca amil də siyasi varislik ənənələrinin uğurla təmin olunmasıdır. Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdıran Ulu öndər, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin müəllifi olduğu siyasi strategiyanın davamlılığını təmin etmiş, parlaq zəkası hesabına respublikamızın gələcək uğurlarına təminat yaratmışdır. Respublikamızın 2003-cü ildən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada lider mövqelərini qoruyub saxlaması da məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Sonuncu qurultayda partiyanın lideri, dövlətimizin başçısı cənab İlham Əliyevin 2018-ci il 11 aprel tarixdə keçiriləcək növbəti prezident seçkilərinə namizədliyinin irəli sürülməsi cəmiyyətin sosial sifarişini özündə ehtiva edən strateji əhəmiyyətli qərar olaraq, həm də YAP-ın ümummilli siyasi təşkilata çevrildiyini təsdiqləyir. 2017-ci ilin 21 noyabrında yaranmasının 25-ci ildönümü tamam olmuş partiyanın keçdiyi mürəkkəb və şərəfli inkişaf yolu Azərbaycanın xoas və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən sabitliyə, tərəqqiyə, yüksəliyə, hüquqi, demokratik, dünyəvi dövlətə doğru inamlı addımlarını özündə ehtiva edir.

YAP və onun alternativsiz lideri Prezident İlham Əliyevin rəhbərliyi altında əldə olunan böyük uğurlar insanlarda gələcək barədə nikbin təəssürat və daxili əminlik yaratmışdır. Ölkə başçısı ötən 15 ildə respublikanın inanılmaz uğurlarının müəllifi olaraq YAP-ın ümumxalq partiyası imicini daha da möhkəmləndirmişdir. Onun son qurultayında partiyanın alternativsiz lideri - dövlət başçısı cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi təkcə üzvlərinin sayı 700 minə çatan hakim partiyanın deyil, ümumən Azərbaycan cəmiyyətinin istəyini nümayiş etdirmişdir.

Partiyanın son qurultayında dərin məzmunlu nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Keçən ilin noyabrında biz partiyamızın 25 illik yubileyini qeyd etmişik. Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir. 1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyamızın təsis konfransı tarixi hadisə idi və 25 ildən sonra biz bunu əyani şəkildə ölkəmizdə mövcud olan vəziyyətdə, əldə etdiyimiz uğurlarda görürük".

Əgər cənab İlham Əliyevin xalqın siyasi iradəsi əsasında Azərbaycan Prezidenti seçildiyi vaxtdan keçən müddət ərzində ölkə həyatında baş verən ictimai-siyasi proseslərə, qazanılan uğurlara diqqət yetirsək, ümummilli liderin vaxtilə böyük uzaqgörənliklə söylədiyi fikirlərin həyatda nə dərəcədə özünü doğrultduğuna şahid ola bilərik. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət hesabına ölkəmizin əldə etdiyi uğurlar, əslində, ulu öndərin bir vaxtlar ideallarında yaşatdığı və onların həyata keçirilməsi üçün zəruri əsaslar hazırladığı ülvi arzulardır. Xatırlatmaq yerinə düşər ki, ulu öndər Heydər Əliyev xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirir, respublikanın gələcək taleyi baxımından vacib olan bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına inamını ifadə edirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Müdrik və qədirbilən xalqımızın Heydər Əliyev dühasına sonsuz sevgisi, cənab İlham Əliyevin şəxsiyyətinə və siyasi liderlik keyfiyyətlərinə dərin inamı 2003-cü ilin prezident seçkilərində sözünü demişdir. Xalqın xeyir-duası ilə prezident səlahiyyətlərinin icrasına başlayan cənab İlham Əliyevin 2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm" - deməsi onun Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə necə sadiq şəxsiyyət olduğunu nümayiş etdirmişdir.

Statusundan, ictimai-siyasi mövqeyindən asılı olmayaraq hər bir insanın hansı ideyanın daşıyıcısı, nə əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada, cənab İlham Əliyevin ötən 15 illik prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" - tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına saldığı milli inkişaf modeli həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqəti çəkir.

**- Sizcə, ölkəmiz və xalqımız bu seçkilərə hansı nailiyyətlərlə gedir?**

- 2003-cü ilin 15 oktyabr seçkilərindən sonrakı 15 ilin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi inanılmaz nəticələrlə qürur duyan orta statistik azərbaycanlının 2018-ci ilin 11 aprel seçkiləri ərəfəsində "Niyə məhz İlham Əliyevə səs verməliyik" sualına cavabı qəti və birmənalıdır: ölkədəki iqtisadi, siyasi və hüquqi islahatların davam etdirilməsi, milli maraqlara əsaslanan çevik və praqmatik xarici siyasətin yürüdülməsi, regionda toqquşan müxtəlif geosiyasi maraqların uzlaşdırılması zərurəti cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsini obyektiv və labud prosesi kimi ortaya çıxarmışdır.

Bu seçimi şərtləndirən başlıca amillərdən biri də, şübhəsiz, ölkə başçısının rəhbərliyi altında cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən səmərəli islahatların həyata keçirilməsidir. Cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü liderdir və ölkə başçısının elə bir vədi yoxdur ki, ötən 15 ildə bəyanat səviyyəsində, reallaşmamış qalsın. Əksinə, son 15 ildə həyata keçirilən islahatların - miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində reallaşdırılması mümkündür. Fəqət, öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan bu dövrdə fantastik görünə biləcək inqilabi inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilmiş, "Ümid", "Abşeron" kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduran Bakı-Tbilisi-Qars dəmir yolu xətti işə düşmüş, TAP, TANAP kimi enerji layihələri real həyata vəsiqə almış, "Əsrin müqaviləsi"nin vaxtı uzadılmışdır. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir.

Dövlət başçısı 2009-cu ildə Bakı Dövlət Universitetinin 90 illik yubileyində çıxış edərkən respublikamızın MDB məkanında ilk dövlət olaraq iqtisadi sahədə keçid dövrünü başa vurduğunu bəyan etmişdir. Ötən dövrdə respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir.

Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bunun nəticəsidir ki, ötən 15 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial-iqtisadi yüksəliş, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyev YAP-ın son qurultayında ölkədə yürüdülən siyasətin əsasında insan və vətəndaş amilinin dayandığını bir daha bəyan etmişdir: "Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir".

Demokratiyanın mühüm göstəricilərindən biri də hökumətin ictimai rəyə münasibəti əsasında müəyyənləşir. İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə, müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. Ötən 15 ildə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu eyni zamanda cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir. "ASAN xidmət" mərkəzlərinin yaradılması və fəaliyyəti hökumətin xalq qarşısında hər hansı bürokratik amillər olmadan, şəffaf və layiqli xidmət etmək niyyətinin ali təcəssümü olaraq Azərbaycan milli brendinə çevrilmişdir.

**- Qeyd etdiyiniz kimi ötən 15 ildə Azərbaycan böyük inkişaf yolu keçib. Bu insanların həyatında, rifahında özünü necə əks etdirir?**

- Dövlət başçısı cənab İlham Əliyevin Prezidentlik dövrünün ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuş, cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər - ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hətta Sovet dövründə də mavi yanacaq üzü görməyən Yardımlıya, Lerikə qaz xətti, Qubanın ucqar dağ kəndi Xınalığa yol çəkilmiş, daha bir fantastik layihənin - strateji əhəmiyyətli Quba-Şamaxı yolunun inşasına start verilmişdir. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırmışdır.

Ardı Səh. 14

# Cənab İlham Əliyev ölkəmizi davamlı inkişaf və yüksəlişə aparan strateji siyasi kursu inamla davam etdirəcək

Əvvəli-Səh-13

Azərbaycan xalqının milli düşüncəsində su çəkmək daim savab, halal iş sayılmışdır. XXI əsrin əvvəllində bu xeyirxah, nəcib, insanpərvər missiyanı xalqını və dövlətini qəlbən, ruhən sevən cənab İlham Əliyev üzərinə götürərək uğurlu sona çatdırmışdır. Oğuz-İsmayıllı bölgəsindən Bakıya su kəmərinin çəkilməsi, eləcə də rayonlarda, kəndlərdə su probleminin həlli istiqamətində atılan kompleks addımlar cənab İlham Əliyevin ötən 15 ildə ölkə vətəndaşlarına ən böyük yaxşılıqlarından, xeyirxahlıqlarından biridir.

İqtisadi sabitlik və insanların maddi rifah halının yüksək olmadığı cəmiyyətlərdə demokratiyanın inkişafı mümkün olmur. İnsan hüquqlarının maksimum səviyyədə qorunduğu liberal cəmiyyətin formalaşdırılması üçün birinci növbədə maddi baza olmalı, demokratik inkişaf möhkəm iqtisadi təmələ əsaslanmalıdır. Bu amilə daim xüsusi önəm verən Prezident İlham Əliyev doğru olaraq qeyd edir ki, iqtisadi islahatlar siyasi islahatlarla paralel getməli və bu iki amil bir-birini tamamlamalıdır, əks təqdirdə, əldə olunan uğurlar müvəqqəti xarakter daşıyacaqdır.

Dövlət başçısının YAP-ın son qurultayında bəyan etdiyi kimi, ötən illərdə qazanılan nailiyyətlərin əsasında, ilk növbədə, iqtisadi və siyasi islahatların paralel şəkildə həyata keçirilməsi dayanır: "Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. Bütün azadlıqlar - söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə, - biz bunu istəyirik, - mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir".

Ötən illərdə Azərbaycan regional və beynəlxalq əməkdaşlığı bölgədə sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edərək Ermənistan istisna olmaqla bütün yaxın qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur. Ölkəmizdə mövcud sabitliyin kənar təhdidlərin hədəfinə çevrilməsinin qarşısını alan əsas amillərdən biri də Azərbaycanın beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, suveren bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət həyata keçirməsidir.

Yalnız bir neçə fakt Azərbaycan diplomatiyasının son 15 ildəki uğurları barədə dolğun mənzərə yaradır: Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilmiş, Rusiyanın Azərbaycandakı yeganə hərbi bazasının - Qəbələ Radiolokasiya Stansiyasının fəaliyyəti dayandırılmış, Azərbaycan zabiti Ramil Səfərovun Azərbaycana ekstradisiyası reallaşdırılmış, türk və islam dövlətləri ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Çevik və çoxtərəfli diplomatik fəaliyyətimizin, Azərbaycanın təşəbbüskarlığı və ev sahibliyi ilə Bakıda keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərin nəticəsidir ki, Bakı artıq regionun "diplomatik paytaxtı"na çevrilmişdir.

Müasir dövrdə sivilizasiyalar arasında dialoqun ən mühüm problemlərindən biri də multikulturalizmdir. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. YAP-ın son qurultayında multikulturalizmin Azərbaycan xalqı üçün səciyyəvi cəhət olduğunu xatırladan Prezident İlham Əliyev demişdir: "Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır. Təsadüfi deyil ki, məhz bizim təşəbbüsümüzlə Azərbaycanda bu mövzu ilə bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Bu il 10 illiyini qeyd edəcəyimiz "Bakı Prosesi" bu gün BMT tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir".

- Abel müəllim, Siz respublikamızın nüfuzlu elm və təhsil xadimisiniz. Ötən illər ərzində bu sahələrə dövlət qayğısı haqqında fikirlərinizi bilmək istərdik. Bununla yanaşı, necə hesab edirsiniz, prezident seçkilərində elm və təhsil ictimaiyyətinin seçimi necə olacaq?

- Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ilk gündən elm və təhsilə qayğını, bu sahədə özünü göstərən problemlərin həllini də hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Dövlət başçısı milli ənənələri qorumaqla, dünya təhsil sisteminə inteqrasiya prosesinin sürətləndirilməsi, inkişaf etmiş dövlətlərin bu sahədəki qabaqcıl təcrübəsinin mənimsənilərək yayılması, ümumtəhsil məktəblərində, ali təhsil müəssisələrində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi məqsədinə xidmət edən kompleks tədbirlər həyata keçirmişdir.

Ümumiyyətlə, son 15 ildə imzalanmış həmin fərman və sərəncamlarda təhsilin, elmin problemlərinin həlli, habelə ölkədə güclü insan kapitalının formalaşdırılması məqsədi birinci planda dayanır. Regional inkişaf prosesi çərçivəsində yeni məktəblərin tikintisi və onların kompüterləşdirilməsi, ali təhsil sisteminə qayğının gücləndirilməsi, müəllimlərin sosial müdafiəsi tədbirlərinin genişləndirilməsi, elm sahəsində həllini gözləyən problemlərin aradan qaldırılması, Avropa təhsil məkanına inteqrasiyanın təmini- Bolonya prosesinə keçid, "Təhsil haqqında", "Elm haqqında" yeni mükəmməl qanunların qəbulu bu tədbirlərin əsas tərkib hissəsi olmuşdur.

Dövlət başçısı İlham Əliyevin 30 may 2005-ci il tarixli "Azərbaycan Respublikasının Prezidenti yanında təhsil üzrə xüsusi komissiyanın yaradılması haqqında", 4 sentyabr 2007-ci il tarixli "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında", 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında", 4 may 2009-cu il tarixli "Azərbaycan Respublikasında 2009-2005-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", 21 oktyabr 2009-cu il tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" sərəncamları da bu sahədə qarşıda duran konseptual vəzifələrin həllinə yönəlmişdir.

Elm və təhsil sahəsində həyata keçirilən dövlət siyasətinin ikinci əsas istiqaməti Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi, "Bolonya prosesi"nə keçidin təmini, ən başlıcası, azərbaycanlı gənclərin dövlət hesabına dünyanın nüfuzlu universitetlərində təhsilinə şəraitin yaradılması olmuşdur. Gənclərin xaricdə təhsil almağa göndərilməsi ilə bağlı hələ 70-ci illərdə mövcud olmuş mütərəqqi ənənənin bərpası dövlət idarəçiliyi üçün müasir təfəkkürlü, biliklə və yüksək ixtisaslı kadrlar hazırlamaq məqsədi daşıyır. Dövlət başçısının 31 yanvar 2008-ci il tarixli "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında", habelə 16 aprel 2007-ci il tarixli "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamları da məhz bu məqsədə xidmət etmişdir. Ümumilikdə, proqram əsasında 5000 nəfər tələbənin dövlət büdcəsi hesabına xaricdə təhsil almağa göndərilməsi Azərbaycan dövlətinin gələcəyi baxımından son dərəcə əhəmiyyətli addım olmuşdur. Bunun tərkib hissəsi kimi Azərbaycan Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında" 2010-cu il 9 fevral tarixli sərəncamı respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşımışdır.

Prezident İlham Əliyevin təkmil elm və təhsil strategiyasında "nou-xau" texnologiyalarının dərindən mənimsənilməsi üçüncü mühüm istiqamət kimi diqqəti çəkir. Müasir dünyanın inkişaf perspektivlərini düzgün dəyərləndirən dövlət başçısı İlham Əliyev hələ 2003-cü ilin dekabrında Cenevrədə keçirilən ümumdünya sammitində bəyan etmişdir ki, Azərbaycanda neftdən sonra prioritet sahə informasiya və kommunikasiya texnologiyalarının inkişafı olacaqdır. Dövlət başçısının 2004-cü il 21 avqust tarixli "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illlər) təsdiq edilməsi haqqında", habelə 2008-ci il 10 iyun tarixli "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamları Azərbaycan Respublikasında müasir informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi yolu ilə vahid ümummilli təhsil mühitinin yaradılması, əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi məqsədinə xidmət etmişdir.

Şübhəsiz, cəmiyyət inkişaf etdikcə, elmin qarşısındakı prioritet vəzifələr də dəyişir. Yeni dövrün gerçəklikləri elmi tədqiqatların bütövlükdə iqtisadi-siyasi, mədəni-humanitar həyatla əlaqələndirilməsini zəruri edir. Eyni zamanda, elmi tədqiqatların bütövlüklə insan amilinin rifah və tərəqqisinə xidmət etməsi qloballaşma əsrinin diktə etdiyi qaçılmaz reallıqdır. Bu da təsadüfi deyildir ki, son illər Azərbaycanda gerçəkləşdirilən milli layihələr insana, onun həyat keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş sərmayələrdir. Milli layihələrin səciyyəvi xüsusiyyəti, ilk növbədə, onların innovasiya yönümlü olmasındadır. Dövlət inkişafın elə istiqamətlərini dəstəkləyir ki, onlar qabaqcıl texnologiyalardan istifadə və bu texnologiyaların sənayedə tətbiqi ilə bağlıdır.

Hər bir xalqın gələcəyi sayılan gənclərin intellektual inkişafını təmin etmədən onların milli-mənəvi dəyərlərə bağlı şəxsiyyət kimi yetişməsinə nail olmaq qeyri-mümkündür. Bəşəriyyətin xilasına yönəlmiş ideallar məhz elm və təhsilin yüksək inkişaf etdiyi ölkələrdə özünə möhkəm dayaqlar tapa bilir. İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış dövlətlərin bu nailiyyətləri məhz elmə, təhsilə yüksək diqqət və qayğı nəticəsində əldə etdiyi də danılmaz gerçəklikdir. Heydər Əliyev Fondunun son 15 ildə həyata keçirdiyi layihələrin sırasında elm və təhsilin, müasir informasiya texnologiyalarının mühüm yer tutması da məhz bu reallığa söykənir.

2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuş Mehriban xanım Əliyevanın ötən 1 illik fəaliyyətində təhsilin inkişafına həssas münasibət amili yenə də ön plandadır. Xüsusi vurğulamaq lazımdır ki, bu təyinat ölkəmizin elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlərin uğurlu davamına təminat yaratmış və islahatlara yeni nəfəs vermişdir. Ümumilikdə, Azərbaycanın birinci xanımının cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi həm də bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 300-dən çox məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilmiş, lazımi avadanlıq, istilik sistemi, zəngin kitabxana və kompüterlə təchiz olunmuşdur.

Böyük minnətdarlıq hissi ilə qeyd etmək istərdik ki, Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universiteti də son 15 ildə dövlətimizin başçısının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşdur. Dövlət başçısının 24 aprel 2009-cu il tarixli sərəncamı əsasında BDU-nun 90 illik yubileyinin keçirilməsi əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənənin uğurlu davamı olmuşdur. Cənab İlham Əliyevin dəstəyi ilə universitetin yeni korpusu istifadəyə verilmiş, maddi-texniki bazası daha da möhkəmləndirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 14 noyabr 2017-ci illi tarixli "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı da universitetin keçdiyi şərəfli yola verilən yüksək qiymətdir. Sərəncama əsasən Bakı Dövlət Universitetinin 100 illik yubileyinin layiqincə keçirilməsi üçün xüsusi tədbirlər planı hazırlanmışdır. Ölkədə ali təhsilin, elmin ənənələrinin zənginləşdirilməsində, gənc nəslin müstəqil dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsində mühüm xidmətləri olan Bakı Dövlət Universitetinin keçdiyi tarixi yola, habelə Ulu öndər Heydər Əliyevin universitetin inkişafındakı tarixi xidmətlərə bir daha nəzər salınacaq, qazanılan uğurlar dünyaya bəyan olunacaqdır.

BDU-nun çoxsaylı professor-müəllim heyəti əmindir ki, 2018-cü il aprelin 11-nə təyin olunmuş növbəti prezident seçkiləri ölkəmizin sosial-iqtisadi, mədəni inkişaf, demokratikləşmə prosesində qazanılan uğurların davamlılığının təmin edilməsi baxımından taleyüklü hadisədir. Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdiyi kimi, qarşıdakı illərdə Azərbaycanın taleyini də ulu öndərin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevə etibar edirlər. Ölkənin elm və təhsil ictimaiyyəti ürəkdən inanır ki, xalqın böyük etimadını qazanaraq növbəti dəfə Azərbaycan Prezidenti seçiləcək cənab İlham Əliyev respublikamızı davamlı iqtisadi inkişaf və yüksəlişə aparan strateji siyasi kursu inamla davam etdirəcəkdir.

# Yerli özünüidarəetmə orqanları seçkilərində qadın hüquqlarının müdafiəsi

***Yerli özünüidarəetmə orqanları (YÖO) haqqında qanunlar Azərbaycanda hələ 1997-ci ildə hazırlansa da, ölkə parlamenti tərəfindən qəbul olunmamışdı. Yeni təkmilləşdirilmiş qanunvericilik 1999-cu ildə qəbul olundu və elə həmin il dekabr ayının 12-də, hələlik, yeganə olan bələdiyyə seçkiləri keçirildi.***

Seçkilər və YÖO-nun işinin ilkin nəticələri əhalinin YÖ ideyaları və təcrübəsinin reallaşmasına hazır olmadığını göstərdi. Nəinki sıravi seçici, hətta YÖO-yə seçilənlərin və seçənlərin birinci dalğasında yerli özünüidarə haqqında həddindən artıq zəif və qarışıq təsəvvürlərin olduğu meydana çıxdı.

Bu gün Azərbaycanda YÖ ilə bağlı qanunvericilik bazasına Nazirlər Kabinetinin qərarlarını saymasaq, 60-dan çox qanun, fərman və qərarlar daxildir. Görüləcək işin əsas istiqaməti kimi bu qanunvericilik bazasının həm əhali- seçicilər, həm də YÖO-nın qulluqçuları və üzvləri tərəfindən mənimsənilməsinə yönəltmək lazımdır.

Bütün respublikalarda demokratiyanın əsas prinsipi olan azad seçkilər prinsipi ağır sınaqlara məruz qalır. Hədsiz sayda seçki saxtakarlıqları faktları qeydə alınır. Bu həyəcanlı vəziyyətin qorunmasında vətəndaşların seçkilərin roluna laqeyd münasibəti, onların seçki kampaniyalarında şəxsən iştirakının mənasını dərk etməməsi də öz bəhrəsini verir. Vəziyyət vətəndaşların hadisələrin indiki axarını dəyişməyin mümkünlüyünə inamının olmaması ilə daha da kəskinləşir. Bir çox hallarda, əsasən də, əyalətlərdə, istənilən növ seçkilərə laqeyd münasibət, dövlət quruculuğunda və demokratik institutların formalaşmasında vətəndaşların öz rolunu başa düşməməsi adi hal sayılır. Nəticədə, seçicilərin seçkilərdə (hətta yerli özünüidarə orqanlarına (YÖO) seçkilərdə) fəallığının aşağı səviyyəsi müşahidə olunur və bu da seçkinin nəticələrinin daha geniş miqyaslarda saxtalaşdırılmasına yol açır.

Bütün orqanlara seçkilərin vacib olduğunu bilsək də, eyni zamanda, hesab edirik ki, vətəndaşların regiondakı postsovet həyatının demokratikləşməsi prosesinə cəlb olunması yolunda ən önəmli vasitə YÖO-ya seçkilərdir. Çünki məhz icmalar və yerli özünüidarə orqanları səviyyəsindən əhalinin demokratikləşmə və vətəndaş cəmiyyətinin qurulması prosesində iştirakı başlanır və məhz bu mərhələdə vətəndaşın hüquq maarifçiliyinin ilkin elementləri təzahür edir. Bildiyiniz kimi, inkişaf etmiş demokratik ölkələrdə YÖ demokratik quruluşun və vətəndaşların idarə sisteminə cəlb olunmasının ilkin göstəricisi sayılır. Məhz bu üzdən xarici ölkələrin YÖO ilə bağlı təcrübəsinin öyrənilməsi və seçicilər arasında təbliğ olunması ehtiyacı yaranır. Üstəlik, region ölkələrində demokratik ölkələrdə seçici hüquqlarının qorunmasıyla bağlı informasiya qıtlığı da kəskin hiss olunur.

Ə.Abbasov: "Yerli özünüidarə, əhalinin ərazi-inzibati özfəaliyyətinin nəzəriyyə və təcrübəsi, yerlərdə muxtar özünüidarə prinsipləri bugünkü həyatımıza geniş surətdə daxil olmaqdadır. Yalnız Azərbaycanda deyil, keçmiş SSRİ respublikalarının hamısında yerli özünüidarə, bələdiyyə sisteminin bərqərarı demokratiyanın möhkəmləndirilməsinin, hüquqi dövlətin inkişafı uğrunda mübarizə aparmağa qabil vətəndaş cəmiyyətinin bərqərar olmasının, demək olar ki, yeganə yoludur. Onilliklər ərzindəki totalitarizm insanları cəmiyyətin idarə edilməsi problemlərindən uzaqlaşdırıb, yetərincə tarixi ənənəyə malik yerli özünüidarənin məsələlərinə qarşı onlarda biganəlik yaradıb. Bununla əlaqədar, Avropa Şurasının təşəbbüsü ilə 1985-ci ildə qəbul olunmuş yerli özünüidarə üzrə Avropa Xartiyası əsas sənəddir. Burada deyilir ki, yerli icmalara mümkün qədər çox idarəetmə məsələləri etibar edilməlidir və bu məsələlərin həllinə dövlət qarışmamalıdır. Bu qərar insanın əsas hüquq və azadlıqları təcrübəsindən irəli gəlir. Özünüidarə hüququ bunların sırasında mühüm yer tutur. Yerli özünüidarə vətəndaşlara onların gündəlik həyatına aid olan qərarların qəbulunda iştirak etmək hüququ verir. Öz növbəsində, bu hüququn həyata keçirilməsi bütün digər vətəndaşlıq hüquqlarının həyata keçirilməsinə zəmanət verir. Buna görə də, Xartiya yerli icmaların siyasi, inzibati və maliyyə müstəqilliyinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi və müdafiə olunması vəzifələrini Avropa Şurasına daxil olan dövlətlərin öhdəsinə qoyur. Xartiya bütün postsovet ölkələrinin bələdiyyə hüquqlarının inkişaf etdiyi özüldür. Xartiyada qeyd edilir ki, "yerli özünüidarə hüququ ən mühüm vətəndaşlıq hüquqlarından biridir, əsl xalq hakimiyyətini hakimiyyətin mərkəzləşdirildiyi yerdə deyil, hakimiyyətin bölünüb, yerlərə verildiyi yerdə axtarmaq lazımdır". Yerli özünüidarə anlayışı altında nə başa düşülür? Xartiyaya görə, "yerli özünüidarə anlayışı altında yerli özünüidarə orqanları tərəfindən dövlət işlərinin mühüm hissəsinin öz öhdəsinə götürülməsi, onun öz səlahiyyətlərinə və yerli əhalinin maraqlarına uyğun olaraq, qanun çərçivəsində idarə edilməsi başa düşülür". Bu və digər təriflər özünüidarənin müxtəlif formalarının bərqərarı və inkişafında yerli, regional və bəzən də tarixi-mədəni xüsusiyyətlərin rolunu, bu, yaxud başqa şəkildə qeyd edir. Avropa Xartiyası, bununla əlaqədar, dünyada mütləq bir-birinin eyni olan ölkələrin olmadığını, nəinki qəbul edir, hətta yerli özünüidarənin modellərinin müxtəlifliyini əvvəlcədən nəzərə alır və rəsmən bəyan edir. Bələdiyyələrin inkişafı yoluna nisbətən yeni qədəm qoyan ölkəmizin yerli özünüidarənin Azərbaycanın tarixində öz izini qoymuş müxtəlif formalarının dəqiq təhlilinə kəskin ehtiyacı vardır. Qeyd olunmalıdır ki, artıq yaranmış rəylərin əksinə olaraq, bu formalar yetərincə inkişaf etmiş və müxtəlifdirlər".

Çox təəssüf ki, Cənubi Qafqaz çoxsaylı etnik konfliktlər zonasıdır və bu Azərbaycan və Gürcüstan Respublikalarının ərazisində idarə olunmayan ərazilərin (məs. Qarabağ) yaranmasına səbəb olub. Bu da, öz növbəsində, YÖ-nün inkişafını əngəlləyən amil kimi təzahür edir. Gürcüstanın bu sahə üzrə qanunvericiliyinə nəzər saldıqda, sözügedən problemin əlamətlərini görürük. Bu münaqişələrin həlli, Cənubi Qafqazda sülhün bərqərar olması, nəinki YÖ-nün regionda inkişafına stimul gətirər, üstəlik, bu sahədə regional əməkdaşlığın da geniş miqyaslar almasına səbəb ola bilər. YÖ ilə bağlı region üçün vahid qanunvericilikdən danışmaq müxtəlif səbəblər üzündən hələ tezdir. Ancaq sülhün birdəfəlik bu regionda bərqərar omasından sonra Cənubi Qafqazda Yerli və Regional Hakimiyyətlər Konqresi ideyasını real olaraq gerçəkləşdirmək olar. Qeyd edək ki, ölkənin 4500 yaşayış məskənində 2700 bələdiyyə orqanı yaradılıb, yerli özünüidarəylə bağlı 60-dan çox hüquqi sənəd qəbul olunub.

Bu sahənin monitorinqi bizdə dəqiq təsəvvürlər oyatmağa imkan verər ki, hansı qanunverici aktda və təcrübədə dəyişikliklər respublikanın YÖO-nun qarşısında mövcüd olan maneələri dəf etmək üçün gərəklidir; hansı yolla regionda YÖO sahəsində ümumi qanunvericilik bazası yaratmaq olar; vətəndaş təşəbbüsləri səviyyəsində hansı yollarla hüquqi və iqtisadi inteqrasiyanın əsasını qoymaq olar.

Siyasi iştirak və nümayəndəliklərdə gender uçurumunu, qadınların hələ ki, siyasətdə yeni və autsayder rolunda olduğunu nəzərə alsaq da, onların siyasi proseslərə və qərarların qəbulu mədəniyyətinə faydalı təsirini danmaq olmaz.

Qəbul olunan qərarların gündəlik həyatımıza təsiri, sırf qadın maraqlarının-törəmə hüquqlar, ailə, gender bərabərliyi, qadınlara qarşı zorakılıq, qeyri-iqtisadi şərtlərlə əməyə məcburedilmə halları YÖO-nun diqqətindən kənarda qalıb, bu növ suallar YÖO-nun Azərbaycandakı fəaliyyəti dövründə bir dəfə də olsun qaldırılmayıb.

Qadınlarda yerli özünüidarə haqqında məlumatlar yoxdur. Gürcüstan Parlament Komissiyasının sosial araşdırmalarına əsasən, son seçkilərdə seçicilərin ancaq 12 faizini qadınlar təşkil eləyib. Azərbaycanda bu göstərici 9,7%-dir. Deməli, YÖO-nun rolu və imkanları haqda informasiyaya ehtiyac var. Hətta əhalinin sosial aktiv hissəsi də YÖO-nun real fəaliyyətinə inanmır. Bu göstərici Gürcüstanda Azərbaycana nisbətən 18% çoxdur. Bu fakt daha çox narahatlıq doğurur, çünki, əhalinin böyük hissəsini, xüsusən də, regionlarda qadınlar təşkil eləyir. Buna görə də, qadınlara YÖ-nün mahiyyətini başa salan treyninq və seminarlar keçirilməsi vacibdir.

Ə.Abbasov bunun əsas səbəblərinin aşağıdakılardan ibarət olduğunu göstərir:

X Birincisi, YÖO-ya seçkilər zamanı qadınlar əvvəlcədən mümkün namizədlər siyahısında olmur, onların maliyyə, təşkilati və məlumat resursları yetərincə olmur.

X İkincisi, qadın namizədlər seçkilərə partiya siyahısı ilə yox, müstəqil namizəd kimi getməyə məcbur olurlar ki, bu, onların resurslarının məhdudlaşması deməkdir. Rəyi soruşulan qadınlarda birinin dediyi kimi, "seçkilər daha çox maddi imkandan asılı olur" və bu zaman qadınlara maliyyə və kommersiya strukturları tərəfindən dəstəyin verilməməsi ilə müşahidə olunur.

X Qadınların yerli özünüidarə orqanlarının işində və dövlət əhəmiyyətli qərarların qəbulunda iştirakı üçün hansı köklü əsaslar olduğunu öyrənmək;

X Demokratiya və bazar iqtisadiyyatına keçid qadınların yerli özünüidarə orqanlarının işində iştirakına və təmsilçiliyinə kəmiyyət və keyfiyyət baxımından hansı təsiri göstərib;

X Qadınların yerli özünüidarə orqanlarında təmsil olunmasına yerli səviyyədə hansı köklü və şəxsi xarakterli maneələr törədilir;

X Qadınlar kişilərlə müqayisədə yerli özünüidaərə orqanlarının işinə hansı yeniliklər gətirir (baxmayaraq ki, onlar bu sahəyə təzə qədəm qoyub və çox vaxt autsayder rolunda çıxış edir), qadın və kişilərin bələdiyyələr səviyyəsində liderliyinin hansı özəllikləri var;

X Dövlət və ictimai strukturlar, siyasi partiyalar və həmkarlar ittifaqlarıqadınlarınyerliəhəmiyyətliməsələlərdə rolunu artırmaqdan ötrü hansı məsləhətlərə ehtiyacı var. Bir qayda olaraq, qadınların həyat təcrübəsi, onun qiymətli çalarları YÖO-nun əsaslarında nəzərə alınmır. Feminist yanaşma üçün xarakterik olan şəxsi və ailə maraqlarından yanaşma çox vaxt qadınların YÖO-da iştirakını diqqətdən kənarda qoyur. Feminist araşdırmaları üçün əsas olaraq, o götürülür ki, "qayğı" və "məsuliyyət" konsepsiyalarının kökləri hüquq və ədalət anlayışları haqqında abstrakt fikirlərdən yox, cinsi və ailə mənsubiyyəti, təhsil səviyyəsi kimi sosial məzmundan götürülməlidir.

Gender yanaşması inkişaf etmiş ölkələrdə tətbiq olunan 3 liderlik tipini tamamlayır və inkişaf etdirir. Söhbət "dəyişmiş liderdən gedir" ki, bu anlayış altında "yeni lider -insanları fəaliyyətə çağıran, tərəfdarları liderə çevirən, liderləri isə yeniliklər aqentinə çevirən insan" kimi başa düşülür. YÖ kontekstindən yanaşdıqda, feminist liderliyinin əsasları liderin maarifçilik təbiətini nəzərdə tutur, bu da kişilərin liderliyindən fərqlənir. Feministlərin fikrincə, kişilərin liderliyi lider və seçici arasında siyasi ədalətsizliyə söykənir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 8 aprel

## Yevlax rayonunun Tanrıqulular və Salahlı kəndlərində seçicilərlə görüş keçirilib







Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yevlax rayonunda seçicilərlə görüşlər davam edir. Növbəti belə görüşlər rayonun Tanrıqulular və Salahlı kəndlərində keçirilib.



Görüşləri giriş sözü ilə açan YAP Yevlax rayon təşkilatının sədr müavini, Aparat rəhbəri Əli Quliyev qarşıdan gələn prezident seçkiləri haqqında ətraflı məlumat verib. Natiq həmçinin əmin olduğunu bildirib ki, aprelin 11-də hər bir yevlaxlı seçici Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verəcək.

Sonra çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev bildirib ki, cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə həyata keçirilən siyasət nəticəsində hər bir azərbaycanlı kimi yevlaxlıların da sosial vəziyyəti günbəgün yaxşılaşır, həyat səviyyəsi yüksəlir. Məhz bu amillərə görə xalq bu seçkilərdə də cənab İlham Əliyevə səs verəcək. Sonra çıxış edən YAP Yevlax rayon təşkilatının Qadınlar Şurasının sədri Əminə Əhmədova bildirib ki, bu gün Azərbaycanın hər bir rayonu, hətta kəndləri belə inkişaf edir: "Bütün bunların davamlılığı üçün 11 apreldə seçki məntəqələrinə gələrək hər birinizi cənab İlham Əliyevə səs verməyə çağırıram".

Çıxış edən kənd sakinləri bildiriblər ki, yevlaxlılar artıq öz seçimlərini ediblər: "Azərbaycanı işıqlı gələcəyə doğru aparan möhtərəm Prezidentimizin gördüyü işlər, həyata keçirdiyi uğurlu inkişaf proqramı danılmazdır. Ona görə də biz hamılıqla 11 apreldə Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəyik".





## Qubada izdihamlı zirvə toplantısı keçirilib





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Quba rayonunda minlərlə seçicinin iştirakı ilə izdihamlı zirvə görüşü keçirilib. "İlhamla irəli" şüarı ilə keçirilən görüşdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov Azərbaycanda bu gün mühüm bir proses yaşanıldığını vurğulayaraq, 11 apreldə keçiriləcək prezident seçkilərinin dövlətin həyatında mühüm siyasi hadisə olduğu bildirib. Təşkilat sədri son 15 ildə ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində, böyük uğurların əldə edildiyini qeyd edib.

Rayon təşkilatı sədri bu uğurların davamı üçün səsvermə hüququna malik olan seçiciləri fəal olmağa və gələcəyimizin qarantı olan Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı İlham Əliyev, Bakı Dövlət Univuersitetinin rektoru Abel Məhərrəmov və Qərib Məmmədov Prezident İlham Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla həyata keçirdiyini bildiriblər. Qeyd olunub ki, Cənab İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır. Çıxış edənlər Cənab İlham Əliyevin prezident seçkilərində alternativsiz Lider olduğunu əməli fəaliyyətində təsdiqlədiyini bildirərək, seçiciləri mövcud reallıqları nəzərə alaraq, Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Görüşdə çıxış edən seçicilər ölkəmizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyünü qeyd edərək, növbəti 7 ildə də bu daxili və xarici siyasətin davamlığı üçün Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.







Tədbir incəsənət ustalarının konsert proqramı ilə davam etdirilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**